# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**May 2024 (41)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.
**Texniki redaktor:** Tuncay Şəhrili.
**Məsul katib:** Araz Şəhrili.

**Yaradıcılıq məsələləri üzrə menecer:** **Şəlalə CAMAL**
**Ədəbi tənqid məsələləri üzrə menecer:** **Günnur AĞAYEVA**
**İctimaiyyətlə əlaqələr üzrə menecer:** **Nəzakət EMİNQIZI**

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Təranə Məmməd, Aydın Xan Əbilov, Seymur Sönməz (Paşayev), Kamal Camalov, Rizvan Fikrətoğlu, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Şəlalə Camal, Əli bəy Azəri, Sevindik Nəsiboğlu, Fəridə Abdul, Taleh Xəlilov, Zaur Ərmuğan, Leyla Yaşar, Yadigar Təvəkgül, Aytac İbrahim, Mövlud Ağamməd, Əsgər Ordubadlı, Aysu Türkel, Rafiq Hümmət (Gürcüstan), Leyla Oruc, Faruk Habiboğlu (Türkiyə), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç). Caroline Laurent Turunc (Fransa)

## BU SAYIMIZDA

Baş redaktordan ........................................................... 3
Yazarlar jurnalı ............................................................ 4
Zemfira Məhərrəmli. ....................................................... 5
Zaur Ustac ................................................................... 14
Asif Mərzili. ................................................................. 23
Zemfira Məhərrəmli. ....................................................... 37
Şəmsiyyə Qaramanlı. ...................................................... 47
Ülviyyə Əbülfəzqızı. ....................................................... 55
Təranə Dəmir ................................................................ 66
Zaur Ustac ................................................................... 73
Murad Məmmədov ......................................................... 89
İsmayıl İmanzadə .......................................................... 100
Həsən Əliyev ............................................................... 111
***Foto qalareya-təqdimatlar-təbrik*** ....................................... 119

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan "Yazarlar"ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***"Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək"*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan "Yazarlar" kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **"YAZARLAR"** **dan sifariş yolu ilə əldə edə bilərsiniz. Mobil telefonla əlaqə:** (+994) 70-390-39-93

"YAZARLAR, ANCAQ YAZARLAR…" © YAZARLAR



**Zaur USTAC**

**BAŞ REDAKTORDAN**

Salam olsun, dəyərli oxucular!

Jurnalımızın 41-ci sayı ilə görüşünüzə gəlmişik!

2024-cü ilin May sayının üzqabığının hazırlanmasında 14 may 1993-cu il Azərbaycanın ilk XTT-nın birində (Yaşmada) Hərbi And içmə günü çəkilmiş fotodan istifadə olunub. Fotoda nisbətən hündür əsgər Zaur İbrahimov, ortada şəhid Elxan Hüseynovun anası, əfsanəvi qəhrəman Nurcahan Hüseynova və Zaur Ustac (bəndəniz) yer alıblar. Bu fotodan istifadə etməyimiz təsadüfi deyildir. Aprel ayında uzun sürən xəstəlikdən sonra Nurcahan xanım əbədiyyətə qovuşdu. Ruhu şad olsun. May ayı həm də İlqar Mirzəyevin anadan olduğu aydır. May sayını hazırlayarkən bütün bunların hamısı nəzərə alınıb. Bildiyiniz kimi jurnalımızı elektron formatda ödənişsiz müxtəlif platformalardan oxumaqla yanaşı arzu edən müəllif və oxucular Bakı şəhəri 28 may metro stansiyası yaxınlığında yerləşən "Kitabevim.az"dan və "Moskva" kitab evindən ənənəvi – kağız formatında əldə edə bilərlər.

Sizə bütün fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq!

**Hörmətlə: Zaur USTAC,**

***"Yazarlar" jurnalının baş redaktoru.***

## “YAZARLAR” JURNALI

### “Yazarlar” jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:

- Jurnalla əməkdaşlıq edən yazarlar “Müstəqil Yazarlar Konfederasıyası” adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Heç bir maddi və ticari məqsədi yoxdur. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar “Yazarlar dərnəyi” adlı ikinci alt qurumun vasitəsi ilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət “Yaradıcılıq Komissiyası” adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur.
- “Yazarlar” jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.



**“Vətən torpağını sıxdın köksünə”**
*(Arzu Nehrəmlinin Qarabağ şeirləri üzərinə)*
Qanlı vuruşlar, sinələrə dağ çəkən savaşlar dünyanın harasında baş verməsindən asılı olmayaraq, insanların həyatını, xoş güzəranını əlindən alır, arzu və istəklərinin üstündən qara xətt çəkir. Hərb qovğaları şəhər və kəndləri viran qoyur, yurd yerləri doğmaların hənirtisinə həsrət qalır. Nahaq demirlər ki, müharibə qandır, qadadır. Müharibə – oğlu şəhid olmuş anadır, dul gəlindir, kimsəsiz, yetim qalmış uşaqlardır... Deməli, dəhşətli savaşlar düçar etdiyi iztirabları, fəlakətləriylə bütün xalqlar üçün eynidir.

Birinci Qarabağ müharibəsi illərində, həm də ucu-bucağı görünməyən sonrakı ağır, üzüntülü dövrdə savaş mövzusuna müraciət edən qələm sahiblərinin mənfur düşmənə nifrətlə yazdığı ədəbi-bədii nümunələrdə vətənpərvərlik ideyası, yurd sevgisi,

xalqımızın erməni işğalçılara qarşı bitib-tükənməyən mübarizə əzmi önə çəkilib. Tanınmış şair, nasir, publisist Arzu Nehrəmlinin poeziya və nəsr nümunələrində olduğu kimi.

Arzu Kazım qızı Nehrəmli Naxçıvan Muxtar Respublikası, Babək rayonunun Nehrəm kəndində qulluqçu ailəsində anadan olub, bu kənddəki orta məktəbi əla qiymətlərlə bitirib. Üzləşdiyimiz qanlı müharibə gənc Arzunun da ömürnaməsində ağır izlər qoyub. Yenicə qurulan ailənin taleyinə  qəm buludu çöküb. 1992-ci ildə həyat yoldaşı, hərbi təyyarəçi, baş leytenant Yusif Vəliyevin idarə etdiyi döyüş maşını səmada düşmən mərmilərinə tuş gəlib. O,Vətənimizin azadlığı və bütövlüyü uğrunda qəhrəmancasına həlak olub, şəhadətə yüksəlib. 22 yaşlı Arzu xanım doqquzaylıq körpə qızı Zübeydəyə həm ana, həm də ata olub. Arzu Nehrəmlinin şəxsi taleyi milli dövlətçilik tariximizin bir parçası kimi diqqətçəkəndir. Şəhid xanımı həyatında üzləşdiyi bütün ağrı-acılara sinə gərib. Erkən gəncliyindən daim özünütəsdiqə can atıb, Bakı Dövlət Universitetində bakalavr, magistr və doktorantura təhsili alıb. Tarix üzrə fəlsəfə doktorudur. Kitab mədəniyyəti tariximizdən bəhs edən tədqiqatı ilə bağlı monoqrafiyanın, çoxsaylı elmi və publisistik məqalənin müəllifidir, 50-dən çox şeirinə musiqi bəstələnib.

O, həm də tanınmış idmançıdır, hələ uşaq yaşlarından idmanın basketbol və yüngül atletika növləri ilə məşğul olub. Naxçıvan diyarının qadınlardan ibarət yığma basketbol və yüngül atletika komandalarının, eləcə də BDU-nun basketbol komandasının heyətində oynayıb. Hazırda marafon qaçışı ilə məşğuldur.

Hələ orta məktəbdə oxuduğu illərdə ədəbiyyata həvəs göstərir, ilk şeirləri qəzetlərdə dərc edilirdi. Ömrünə-gününə yazılan kədərli hadisədən, sevdiyi insanı itirəndən sonra yaradıcılığında hüznlü

əhval-ruhiyyə daha qabarıq görünürdü. 1997-ci ildə Arzunun "Əbədi sevgi" adlı ilk kitabı işıq üzü gördü və ədəbi cameənin marağına səbəb oldu. Gənc şairin poetik nümunələri barədə müsbət rəylər, resenziyalar yazılmışdı. "Tənha qu nəğməsi" və "Unutmağı öyrənirəm" adlı kitablarında da, elə adından göründüyü kimi, həsrət, hicran dolu şeirlər yer almışdı. Arzunun kədər, qüssə yükü çox ağırdı, lap ölümdən də betərdi. Amma nə qəm! Ürəyində uzun illərin nisgilini, iztirabını yaşadan bu qadının dağlar boyda qürur duyğusu, fəxr-fəxarət hissi də heç vaxt öləzimədi. "Vətən yolunda canını verənlər ölməzliyin zirvəsində dayanırlar" fikrindən bir an daşınmadı. Vətənin dərdini öz dərdi bildi. Vaxtilə yaralı qartaltək çırpınan Qarabağımız, param-parça olub düşmən tapdağında qalan Vətən torpağında qanı selə dönən əliyalın soydaşlarımızın ah-naləsi, igidliyi ilə öyündüyümüz oğul və qızlarımızın rəşadəti var." Arzunun bir şeirində deyildiyi kimi:

Sənə dəyən, mənə dəyib keçibdir,

Qəddimi, belimi əyib keçibdir,

Bu nə ağrı-acı, bu nə biçimdir?

Yüz ildir, min ildir xəstənəm, Vətən.

Bağın, bağçaların dad gəzən yerdə

Necə çiçək açsın yad gəzən yerdə?

Kül altda ocağın od gəzən yerdə

Boğulum, kor olum tüstünə, Vətən.

Bu torpaqda həm də gənc yazar xanımın sevdiyi igidin, körpə qızının atası Yusifin, eləcə də yüzlərcə şəhidimizin ruhuna sayğı, bitib-tükənməyən hörmət var. Ən əsası, yurd yerlərimizi işğal zülmündən qurtarmağa çağırış var. Üzləşdiyimiz bəlaya laqeyd qalmayan Vətən qızının hay-harayı var:

Torpaq nalə çəkib, göy ağlayıbsa,

Hələ gəlin könlün yas saxlayıbsa,

Qınında qılıncın pas bağlayıbsa,

Girmisən Babəkin qəsdinə, Vətən!

“Səni belə görən Arzu neyləsin, dərd gəlib dərdinin üstünə, Vətən,” – deyən şair öz iztirabını doğma məmləkətinin qüssə-kədərindən aralı tutmur. Arzunun bu qəbildən olan şeirlərində yurdu sevmək və göz bəbəyi kimi qorumaq borcunun müqəddəsliyini, əzəliliyini, sanki and içdirmək missiyası var. Budur, müəllifin ən böyük uğuru! Uğurlarında dözümünün, iradəsinin və daha çox da ürəyinin payı var. “Yoluna davam et, uğur, ürəyim” şeirində olduğu kimi:

Elədən-beləyə dərdə yol açdın,

Üstü ələk-vələk, yağır ürəyim.

Nə bir üsyan etdin, nə də ki, çaşdın,

Sındın, əyilmədin, məğrur ürəyim.

Xanım yazar şəhadətə yüksəlmiş igid sevgilisini heç vəchlə unuda bilmir, torpaqlarımızın azadlığı, bütövlüyü naminə oddan-alovdan keçən, son nəfəsinədək döyüşüb canını doğma yurduna fəda edən Yusifi fəxrlə qəhrəmanlıq eposlarımızın məşhur isimlərinə bənzədir:

Çox erkən tələsdin nağıl olmağa,

Ay mənim qanadlı, ağ atlı gülüm.

Hələ gün doğmamış məsum üzümü,

Günaha batmamış ağartdın, gülüm.

Səni yola saldım yaz səhərində,

Müqəddəs naməyə döndün sonunda.

Dədəm qopuzunda, şah əsərində,

Xan Qazan, Dəli Domrul, Basatdın, gülüm.

Arzu Nehrəmli, sözün əsl mənasında, əndişəli, narahat dünyanın narahat adamıdır. Sən demə, həm də tale adlı yazı varmış. O, bəxtinə düşən alın yazısı ilə barışmasa da, taleyindən qaça bilmir. Şairin yaşadığı narahat ömür onun misralarından bəllidir. “Bəxtim, uduzmuşam səni” şeirində oxuyuruq:

Bəxtim, hələ çocuk ikən,

Oynayıb cızmışam səni.

Alnımdaca açıq ikən,

Karıxıb pozmuşam səni.

Ömrünün hər anı nahamar, enişli-yoxuşlu olan şairin əzablı tale ilə dialoqu, həm də savaşı bu gün də davam edir:

Qınamışam çoxu kimi,

Varmı kimi, yoxmu kimi,

Bir gecəlik yuxu kimi

Görməmiş, yozmuşam səni.

Haqqı-sayın da boynumda,

Böyümədi heç boyun da,

Bəxtim, tale oyununda

Artıq uduzmuşam səni.

Şəhid olmuş həyat yoldaşının ölüm xəbərini göylərdən aldığı üçün daim göylərlə əlləşən, mavi səmanı müqəddəs məkan bilən Arzu ölümü qınamır, qovuşmaq üçün ölməyə də razıdır:

Hər kəs üz tutduğu yerdəsən, gəlmə!

İnam yeri də sən, Pir də sən, gəlmə!

Harayla, mən gəlim, bir də sən gəlmə,

Burası beşgünlük həyatdır, gülüm.

Arzu deyir ki, “Zübeydə dünyaya gələndə zaman yaman qarışmışdı. Müharibə bütün həyatımızı çulğalamışdı. Qarabağ savaşının qaldırdığı tozanaq qarşıdakı üfüqləri də görünməz etmişdi. Gələcək aydın görünmürdü, sabahımızın necə olacağı bəlli deyildi. O qarışıq günlərin, qanlı müharibənin amansız güllələrindən biri də mənim ömrümə, qismətimə, taleyimə dəydi. Taleyimi parça-parça edən mərmilər balamın da uşaqlıq xəyallarını yaraladı”.

Xanım yazar dünyanın başına uçduğu, könlünü ovutmağa bütün təsəllilərin aciz olduğu o müdhiş günlərdə bu kövrək misraları qələmə almışdı:

Ehtiyatla tumar çəkin,

ey atalar,

balanıza sevginizi bir az ehmal

göstərməyə çalışın siz…

Ətrafdakı tumarsızlar,

bu tumara gümansızlar

görə bilər bu səhnəni.

Sınıq-sınıq, düyün-düyün,

param-parça o telləri sızlatmayın,

O tellərin yiyəsini için-için ağlatmayın!

Tarixin ən burulğanlı çağında gözünü dünyaya açan qızcığaz isə atasının – şəhid olmuş hərbi təyyarəçi Yusif Vəliyevin uğrunda canından keçdiyi doğma Vətən sevgisi ilə böyüdü, yaşa doldu. “Arzu gəzər məzar-məzar, ümid tapar, gün qazanar” söyləyən nisgilli ananın nəsihətləri ilə pərvaz elədi:

Bəri gəl, can bala, öp bu heykəli,

O sənin atandır, daşlaşıb burda.

Daş olub gözlərdə, qəlblərdə isə

Yüksəlib yenilməz ulu dağ boyda.

“Daşlaşmış heykəldir mərdliyin sonu” adlı şeirin bu misraları ana ürəyinin həm qüruru, həm də təsəllisidir. Şair məmləkətinə yiyə duran, yurd naminə canından keçən hər bir igidə üzünü tutub, ərənlərə “Vətən torpağını sıxdın köksünə, ürəyi yurd üçün dağılan insan” söyləyir.

Arzu Nehrəmli kədərlənəndə qüssənin içində özünü bəs deyincə boğan qadındır, anadır. Onun kövrək, həzin şeirləri, bəzən sərt, həqiqətin gözünə dik baxan söz yarağı bizi milli kimliyimizin, hafizəmizin unudulan məqamlarından agah edir, qəlbimizi sızladan ağrıları bir daha yada salır. Nə yaxşı ki, bu gün Vətənimizin bütövlüyünü bərpa etməyə qadir xalq kimi başımızı uca tutmaq bizə nəsib oldu. 44 günlük Zəfər savaşımızla haqq işimizi dünyaya bir daha çatdırdıq. Şükürlər olsun ki, biz bu möhtəşəm Qələbəyə “dəmir yumruğ”un gücü, xalq və ordu vəhdətinin qüdrəti, şəhidlərimizin və qazilərimizin əzəli torpaqlarımıza səpələnmiş al qanı bahasına nail olduq.

***İlkin mənbə:* /edebiyyatqazeti.az/**

**MÜƏLLİF: ZEMFİRA MƏHƏRRƏMLİ**

**ZEMFİRA MƏHƏRRƏMLİNİN YAZILARI**

**>> Zemfira Maharramli. The Swallow’s Nest.**

**Mustafa Müseyiboğlu adına kitabxana**




**“Qarabağ – Həsrətdən Zəfərə”**

*(Rəfail Tağızadənin kitabı haqqında)*

Salam olsun sənə ey dünyada ən dəyərli nemət olan vaxtını bu sətirləri oxumağa xərcləyən çox dəyərli oxucum! Dünyanın, təbiətin belə gözəl çağında bizə növbəti bir görüş ərmağan etdiyinə görə şükür olsun Böyük Allaha! Bu dəfə haqqında söhbət açacağım şəxs – imza çoxunuza tanış olmaya bilər. Doğrusu (tam səmimi), mən özüm də elə bu şəxsi son bir-iki ildə yaxından tanımışam. Və nə yaxşı ki, tanımışam... Girişə çox vaxt itirmədən birbaşa “Qısa arayış”a keçmək istəyirəm:

**Tağızadə Rəfail Alı oğlu**
*Şair, publisist, esseist, tərcüməçi.*
11 fevral 1958-ci ildə Ağdamda doğulub. Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitet) təhsil alıb. Müxtəlif vəzifələrdə çalışıb.

Azərbaycan Milli Ordusunda zabit kimi ön cəbhədə qulluq etməklə bərabər, həm də Milli Ordunun yaradılmasında iştirak edib. Ordu Birləşməsi Komandanlığı tərəfindən "Şah İsmayıl Xətai" və başqa Fəxri fərmanlarla, gecə döyüşünün təşkilinə görə qol saatı, müxtəlif hədiyyələrlə təltif olunub.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Eyni zamanda tanınmış həkim-şair-bəstəkar Şahin Musa oğlunun sədr olduğu ***AYB***-nin ***Hərbi Vətənpərvərlik Komissiyasının*** yeni seçilmiş üzvlərindən biridir.

"Qapı"(2004) və "Qarabağ rüzgarları" (2009), "Gecə xəyalları" (2013), "Su üzərində bahar" (2019), "Şəhid qardaşlar" kitablarının müəllifidir.

Dünya şöhrətli alim Rafiq Əliyev haqqında "Su kimi sakit və güclü" (2019) kitabını tərtib edib.

Çağdaş dünya ədəbiyyatını, xüsusi ilə polyak şairlərinin şeirlərini dilimizə tərcümə edib.

"Qəfil görüş" çağdaş polyak şeir antologiyası kitabının həmmüəllifidir.

Polyak şairlərinin şeirlərini tərcümə edərək "Şairlər eyni dildə danışırlar" kitabını hazırlayıb.

Çoxlu sayda kitabların redaktorudur.

Azərbaycan və İctimai Radiolarda Qarabağla bağlı esse və publisistik yazılarından ibarət kompozisiyalar hazırlanıb.

Beynəlxalq Rəsul Rza mükafatı laureatıdır (2006). (“Qarabağ Qazisi haqqında ballada” poemasına görə).

Prezident mükafatçısıdır (2011).

“Ziyadar” mükafatı laureatıdır (2024).

“Şopenin ürəyi” poemasına və dahi bəstəkar Frederik Şopenin 200 illik yubileyi ilə əlaqədar Şopenin Azərbaycanda təbliğinə görə Polşanın Mədəniyyət və Mədəni İrs naziri tərəfindən xüsusi Diploma layiq görülüb.

Ədəbiyyat üzrə Nobel Mükafatçısı Çeslov Miloşun Polşada keçirilən 100 illik tədbirində Azərbaycanı təmsil edib.

“Mədəniyyətlərin Dialoqu və İnteqrasiyası Mərkəzi” İB-nin sədridir.

“Ədəbi ovqat” dərgisinin təsisçisidir.

Şeirləri ingilis, polyak, italyan, alman, fransız, rus, ukrain, özbək dillərinə və Anadolu türkcəsinə çevrilib.

“Qarabağ – Həsrətdən Zəfərə” (2023) müəllifin işıq üzü görmüş ən yeni kitabıdır. “Füyuzat” (Bakı) nəşriyyatında nəfis şəkildə tərtib olunaraq nəşr olunmuş kitabı şanlı Zəfərimizə dəyərli töhfə, ictimayətin qələm adamlarından gözlənti dolu – “...hanı sizin yazdıqlarınız?!” çağırışına sanballı cavab kimi dəyərləndirmək olar.

Rəfail Tağızadə imzası ilə səngər həyatına dair materiallar axtararkən tanış oldum. Ömrünün on ilə yaxın bir hissəsini çiynində

silah, əlində qələm (ordunun ən çətin dönəmlərində qumqumasında suyu, "ruqzaq"ında çörəyi olmasa belə döş cibində həmişə gündəliyi olan) səngərlərdə keçirmiş bir ordu mənsubu olaraq böyük əminliklə qeyd edə bilərəm ki, Rəfail Tağızadə bu qəbildən mətn nümunələri yaratmış ən müvəffəq müəlliflərdən biridir. Məsələyə belə bir örnəklə aydınlıq gətirmək istəyirəm. Səngər həyatından bəhs edən istənilən söhbətdə mən öz yazdıqlarımdan çox Rəfail Tağızadənin yazdıqlarına önəm verirəm. Konkret olaraq Yadigar Təvəkgülün "Xatirə Yağışı" kitabını tərtib edərkən Rəfail Tağızadənin "Uçuq evdə payız", "Yadından çıxarma" şeirlərindən istifadə olunmuşdur. Bu qeyd olunmuş iki nümunəni digər alternativ variantlardan fərqləndirən üstün cəhət bədiiliklə reallığın çuğlaşması nəticəsində yaranmış vəhdətdən doğan təbii, səmimi, çılpaq doğru mənzərədir. (Maraqlananlar istənilən internet axtarış sistemində Yadigar Təvəkgül " Xatirə Yağışı" yazıb axtarmaqla kitabın elektron variantı ilə tanış ola bilərlər.)

**"Qarabağ – Həsrətdən Zəfərə"**

"Qarabağ – Həsrətdən Zəfərə" kitabına gəlincə, kitabın üzqabığının rəngi müəllifin demək istədiyinin tən yarısını deyir, oxucuya çatdırır desək yanılmarıq. Belə bir uğurlu başlanğıcla kitabla tanış olmağa başladıqda ikinci sevindirici məqam texniki (orfoqrafik) qüsurların yox dərəcəsində olmasıdır. Kitabı dövrümüzdəki kitab çapı bumunda çağdaşlarından fərqləndirən əsas özəllik onun tərtibi zamanı müəllifin nəsr-nəzm ayrıseçkiliyinə yol vermədən, klassik Şərq kitab tərtibi üslubuna xarakterik qaydada həm poeziya, həm də proza nümunələrinin növbəliyi əsasında (dastanvari) gözə görünməyən süjet xətti üzrə "həsrətdən – Zəfərə" doğru irəliləyərək "44 günlük" savaşda Şuşa zirvəsində kuliminasiya

nöqtəsinə çatıb, Cıdır düzündə dincəldikdən sonra nəticəni elan etməsidir.

Söhbətin bu məqamında Aygün Bağırlının kitaba yazdığı tam əhatəli ön sözü mütləq qeyd etmək lazımdır. Özünlə Yurdun arasında sərhəd çəkmək, hələ bu azmış kimi bu sərhəddə postda dayanıb özünü Yurdundan, Yurdunu özündən qorumaq… Bundan dəhşətlisi yoxdur. Yəqin ki, bu sətirləri oxuyanlardan kimsə mütləq uzun illər əvvəl Aqil Abbasın özü haqqında olan bir sənədli filmdə “Dördyol”da Ağdama gedən asfalt yolun üzərinə qurulmuş simvolik maneəni xatırlayacaq. Bu nöqtədən o yana keçə bilmərsən… Həsrət bax həmin o nöqtədən başlayır… Bu halın nə demək olduğunu çəkmədən nə dərk etmək, nə də təsvir etmək mümkün deyil. Bax həmin bu nöqtə Rəfail Tağızadə ustalığının mayası, uğurunun söykəndiyi başlıca amildir.

Biz **Tağızadə Rəfail Alı oğlu**nu *şair, publisist, esseist, tərcüməçi* kimi təqdim edərkən onun texniki təmayüllü dəqiq elmlər üzrə sistemli təhsil almış istedadlı şəxs (mühəndis) olduğunu unutmamalıyıq . Bu məsələyə əvvəlki yazılarımda da dəfələrlə toxunduğuma görə sadəcə kiçicik bir xatırlatma ilə kifayətlənərək, Rəfail Tağızadəni özü kimi ədəbiyyatçı (filoloq) olmayan qələm adamlarından fərqləndirən əsas məziyyətləri, müasir danışıq dilinə yaxın tərzdə ifadə etməyə çalışsaq həyatın ona verdiyi, real səngər həyatı yaşamaq və Yurdundan ayrı düşərək uzun illər həsrət çəkmək kimi “bonus”ları xüsusi qeyd etmək istəyirəm. Müəllif kitaba məhz bu sualla başlayır. Yola bu silahla çıxır. Çox dəyərli Aygün xanımın verdiyi əhatəli (mübaliğəsiz) girişin həmən ardınca kitabın “8” – ci səhifəsində (mənim üçün təsadüf anlayışı yoxdur) “Həsrət yolçusu” adlı şeirində həm özünə, həm oxucusuna ünvanladığı

***Ay bu yolu gedən yolçu,***

***Yolu, səmti bilirsənmi?***
sualla başlayır “həsrət”dən “Zəfər”ədək uzanan keşməkeşli, təxminən bir qərinəlik yoluna... Rəfail Tağızadə bir müəllif, yurdsevər yurddaş kimi özünün bu yola dərindən bələd olduğunu yol boyu “Vaqonun altından asılan beşik”, “Qızılgül”, “Yolçu, ordan quş göndər, dimdiyində torpağım”, “Qaçqın qəbiristanlığı”, “Getmək istədiyim yer göz önündə”, “Orda bir ev var”, “Qalx ayağa gedək, qardaş”, “...1993...”, “Sabahı gözəl Şuşam” və “Mən sənin sərhədin, vətən” adlı dayanacaqlarda, kölgəliklərdə, bulaq başında, arx üstündə, darvazası olmayan doqqazlarda dəfələrlə sübut edir, təsdiqləyir. Oxucusuna öyrədir. Sanki hər epizoddan sonra “Bir qalanın sirri” filmində kitabların Elşənə ünvanladığı sual adamın beynində rezonans verir... Məncə əsl mətləbi bax bu yola az-çox bələdçiliyi olan oxucu anlayacaq.
Belə ümumi baxışdan sonra üş(ç) konkret məqam üzərində qısa dayanaraq söhbətimi yekunlaşdırmaq istəyirəm. Birinci kitabdan bir nəsr nümunəsindən kiçicik parça:
**“Hər kəsə verilməyən çiçək**
Qarabağın hər yeri gözəl idi. Dağı da, dərəsi də. Torpağı, suyu, havası da. Əldən yerə nə düşürdüsə, bitirdi. O yerlərdə qoz ağacını qarğalar əkirdi.

Baharı laləzara dönərdi.
Meyvələrin tamı, güllərin, çiçəklərin ətri bambaşqa idi.
Bənövşənin də...” ardı kitabda. Səh. 33.

İkinci bir nəzm nümunəsinin mətləbi haqqında və özündən parça:

**“Doqquz qoz ağacı haqqında ballada**

*Şəhərə məcburi köçməli olan anam iki dəfə yaman kövrəldi:*
*bir dəfə mən bazardan bayramlıq qoz alıb gətirəndə, ...*
Qarımış qoz ağacında
qarğalar qoz-qoz oynadır,
süpürülməyən xəzəllərin altında
neçə ilin bayramlıq qozu yatır.
Doqquz qoz ağacı vardı kənddəki həyətimizdə
doqquzu da bir-birindən böyük,
bir-birindən uca,
budaqları haça-haça.
Hələ kənd bağındakıları demirəm. ...” ardı kitabda. Səh. 18.

Üçüncü isə kitabda səh.150 – də yer almış “Heykəlin təbəssümü” haqqında.

Bir dəstə bənövşəni “CD”, “DVD” və ya ən müasir yaddaş kartı ilə müqayisə edərdim… Hər dəfə bir dəstə bənövşə gördükdə (hələ onun ətri) insanın bütün uşaqlığı, gəncliyi kino lenti kimi gözü önündə canlanır. Bir dəstə bənövşə sözün əsl mənasında bir qəlbin açarı, bir ruhun yelkənidir. Eşq olsun, Rəfail Tağızadə!

“Qoz ağacı” məsələsi – bu girilləsi kol deyil… Yaralı yerimizdir… Yəni ən azından bu kiçik həcmli bir kitaba məlumatlandırma xarakterli ümumi baxışdan ibarət olan yazıda bu məsələdən söz salmağın yeri yoxdur. Deməlini Rəfail Tağızadə deyib…

“Heykəlin təbəssümü”nə gəlincə bu mənə çox maraqlı gəldi. Bura qədər elə bilirdim ki, “heykəlin güldüyünü təkcə mən görmüşəm…” bu yerdə ***”BU GECƏ NATƏVAN GÜLÜMSƏYİRDİ”*** şeirindən bir parçanı təqdim edib söhbətimi yekunlaşdırıram:

***Bu gecə Şuşada göydən nur yağır,***
***Hər kəsin üzündə qürur, təbəssüm!***
***Yurdun oğlun, qızın görüb bəxtiyar,***
***Xan qızı Natəvan edir təbəssüm!***

***14-15.07.2022. - Bakı.***

Şeiri tam olaraq Zaur Ustac “Bu gecə Natəvan gülümsəyirdi” yazıb axtarış etməklə internetdən tapıb oxumaq olar.

Dəyərli oxucum, əlbəttə, həcmindən asılı olmayaraq istənilən yazıda bütün məsələlərə toxunmaq, maraqlı sualların hamısı haqqında fikir bildirmək mümkün deyil. Ancaq mən çalışdım ki, oxucuda kitab haqqında ilkin bir fikir formalaşdıracaq yığcam yazı hazırlayım və bu yazımda heç olmasa bir-iki nümunəni olduğu kimi təqdim edim. Qısa fikirlərimi bildirim. Ümidvaram ki, müəyyən mənada məqsədimə nail olmuşam. Dünyada ən dəyərli nemət olan vaxtınızı bu sətirləri oxumağa həsr etdiyinizə görə sizə öz

dərin təşəkkürlərimi bildirirəm. Sağ olun. Allah amanında. Allah sizi qorusun!

**Müəllif: Zaur USTAC**

**WWW.KİTABEVİM.AZ**

**>>>SATIŞDA OLAN KİTABLAR**

**Yadigar Təvəkgül – "Xatirə yağışı"**

**Rəfail Tağızadə: Su üzərində bahar**

**Rəfail Tağızadə – "Qarabağ rüzgarları" kitabı**

**Mustafa Müseyiboğlu adına kitabxana**




**BORC DƏFTƏRİ**

***(hekayə)***

...Qəsəbədə hamının daha çox tanıdığı bir ünvan var idi: Abbasın dükanı. Amma məcburi köçkünlər çox olduğundan bəzən Abbas kişi malı nisyə verirdi. İnsafən, pulunu gecikdirən olmurdu. Amma Abbas kişi bəzən haqq-hesabı itirərdi də. Bunun da çarəsini tapmışdı. Çoxsəhifəli bloknotlar alıb nisyə dəftəri kimi daim piştaxtanın üstünə qoyardı. Hətta neçə dəfə yoxlama gələndə bu dəftərləri

qarşılarına qoymuşdu və bir-bir borcluların siyahısını göstərmişdi də: «Bu şəhid ailəsidir… Bunun yoldaşı itkin düşüb… Bunun 3 oğlu qazidir… Bunun iki körpəsi yetim qalıb… Bunun əri Rusiyaya çıxıb gedib…». Məsələ bəzən bununla da bitərdi.

***

Abbas kişi adətən dükanda səhərin gözü açılanda peyda olardı. Çünki ilk növbədə məktəbə, yaxud harasa işə tələsənlər erkən isti çörək almağa gələrdi. Bu gün də elə oldu. Dükanı açan kimi içəriyə qonşusu Qaraş girdi. Tövşüyə-tövşüyə: -Abbas dayı, bir dənə ucuz və keyfiyyətli paltarasan ver…

Abbas kişi eynəyinin altından bir Qaraşa baxdı, bir borc dəftərinə, bir də paltar asılqanları olan rəflərə:

-Qaraş, əvvəlcə de görüm, borclarını niyə ödəmirsən?

Baməzə adam olan Qaraş gülümsəyərək:

-Abbas əmi, inan, çörəkpulu ilə nəvələrin uşaqpulu ayımıza bəs eləmir…

-Ayə, ay qırışmal, bir arvaddı, bir də sən. İkinizin aylığı nə təhər bəs eləmir? Yaxşı matoristsən, o günü qardaşım oğlundan əlbəəl 150 manat aldın. Özün alanda borca yazmırsan, amma dükana verəndə borc yığılır, həəə?!

-Abbas əmi, bizim ev Həsənağanın stalovasına dönüb. Əşşi, arvad üzüyumşaqdı deyə, qonşu arvadları yığışır bizə. Kəklikotulu çay, havayı işıq, «duxovka» da hər gün paxlava, şəkərbura bişirməkdən «Nənəmin təndiri»nə dönüb. İş o yerə çatıb ki, qonşu Telli xala mənə nə desə yaxşıdı: «Ay Qaraş, bu yoldaşının əli yaman duzdudu, yeməyi dadlı, paxlavası şibşirin». Deyirəm, aaz, o duzdu əldən səndə niyə yoxdu? Arvad deyilsən?!

Qaraş birdən başa düşdü ki, Abbas kişinin sualından yayınır, gəldi mətləbə:

-Həəə, Abbas dayı, inan, bu arvadın qonaqpərvərliyi başıma bəla olub. Halal xoşları olsun ey, amma bir dəfə də özləri qonaq çağırsın ki, mən işdən gələndə evdə rahatlana bilim. İnan, o portretdəki seyidin cəddinə and olsun, ayda şüşə qəbulu sexinə 40-50 araq butulkası da təhvil verirəm, amma yenə də çətinliklə dolanıram…

Abbas kişi özünü gülməkdən güclə saxladı:

-Əəə, bəsdi də… Ayda 50 araq butulkası verənin…

İstədi söysün, amma özünü güclə saxladı:

-Ay qırışmal, o seyid şəkli deyil, deputat seçkisindən divarda asılıb qalan şəkildir. 20 illik deputatını tanımırsan?

-Sən öl yox, üzügülər gördüm, elə bildim seyiddi.

-Düz deyirsən, seçki vaxtı onların hamısının sifəti gülər olur… İndi de görüm sənə ucuz və keyfiyyətli asılqanın hansından verim?

Qaraş bahalı paltarasanlara baxmaqda ikən, dükançı Abbas kişi fikirləşdi ki, Qaraş indiyədək hansı borcunu tam ödəyib ki! Bahalı paltarasan versə, o da borca gedəcək. Birdən soruşdu:

-Qaraş, sən o asılqandan nə asacaqsan ki?!

-Əşşi, bilmirsən? Özümü… Bayaq bir Quranlıq söz danışmışam, hələ bir soruşursan da… Sən öl, bax sifətini 20 ildi görmədiyim o deputatın canına and olsun, bizim bu arvadın əlindən özümü asmaq istəyirəm…

Sonra nə fikirləşdisə, -Abbas dayı, zarafat o yana, uşaqlar şəhərdə olur, əyinlərinə olmayan paltarlarını yığıb gətiriblər bizə. Evdə də yer yoxdu, ona görə üst-üstə asırıq, hər paltarasan da tab gətirmir, qırılır…

Abbas kişi sözü göydə tutdu:

-Tapdım, Qaraş, ən ucuz, keyfiyyətli, dözümlü paltar asan tapdım…

-Hə, qadan alım, qırılmasın eyy…

-Ə, nə danışırsan, özünü də assan qırılan deyil…

Abbas kişi dükanın təsərrüfat malları anbarına baş çəkib tez də geri qaytdı:

-Qaraş, bu gördüyün minlik beton mismarıdı. Mıxla divara, əyilən də deyil…

-Hə, lap biz köçkünlər kimi… Abbas kişi, sən ondan 5 dənə ver. Həm ucuz, həm də dözümlü…

-Ömrünün axırına kimi bəsindi…

-Başa düşmədim, sözündən belə çıxır ki, ömrümün axırına kimi bu köçkün qəsəbəsində qalajam…

-Yox, əşşi, sadəcə, hara getsən, çıxart, özünlə apar də. Həm də sizin nəsil uzunömürlüdü axı…

-Əşşi, bu arvad qoyur ki, ömrümüz uzun olsun…

-Arvad neyniyir eyy sənə?

-A kişi, ötən dəfə sənin dükanından göyərti aldım ha…

-Hə, noolub ki?! Bu göyərtiləri qəsəbənin o biri başında Sənəm bacı yetişdirir, istixana düzəldib, il boyu göyərti becərir, dəstəsini görürsən də, təptəzə…

-Xalamdı…

-Həəə? Onun bir bacısı qardaşım oğlundadı, bir bacısı da bacım oğlunda. O biri lap kiçik bacısı isə xalam nəvəsindədi…

Baməzə Qaraş yenə zarafatından qalmadı:

-Abbas kişi, tay denən xalalarımın hamısını sizin nəsil «işlədir» də…

Hər ikisi o ki var güldü.

-Abbas dayı, deyim də, göyərtini apardım evə. İçində dağ kişnişinin bir dəstəsi əzilmişdi, arvad başdadı donquldanmağa ki, neçə dəfədir, nə alırsan, zay çıxır… Ütü aldın, pis işlədi, ventilyator aldın, zay çıxdı… Axırı dözmədim, dedim, aaz, insafın olsun, niyə yalan danışırsan, düz 40 ildi səni almışam, haran zaydır, aaz?!

Abbas kişi səhər-səhər Qaraşın bu baməzə söhbətlərinə o ki var güldü, bir az eynəsi açıldı.

Qaraş gedəndən sonra Abbas kişi borc dəftərlərini vərəqləməyə başladı. Haqq-hesab edəndə birdən Ülvinin adını gördü. Ülvi qəsəbəyə təzə gəlmişdi. Bir gün dükana gəlib demişdi ki, Abbas dayı, bir həftəliyə rayona gedirəm, bu malları ver, dəftərə yaz, qayıdıb hamısının pulunu ödəyərəm, borclu qalmaram…
Təxminən 300 manatlıq borc bir aydan çox idi ödənilməmiş qalırdı. Ülvidən isə səs-səmir yox idi. Abbas kişi ailəsindən də kimsəni tanımırdı ki, xəbərləşsin. Amma üstünü vurmurdu, çünki artıq müharibə başlamışdı, qəsəbədən xeyli cavanlar müharibəyə getmişdi, erməniləri

torpaqlarımızdan iti qovan kimi qovub çıxardırdılar. Bəlkə elə Ülvi də müharibəyə gedib, bilmirdi. Amma ürəyinə elə dammışdı.

Artıq Füzuli, Xocavən və onlarla kənd ermənilərin işğalından azad edilmişdi. Abbas kişi isə söz vermişdi ki, döyüşçülərimiz Şuşa yoluna çıxanda borc dəftərlərini yandıracaq. Amma nəsə bir şeydən şübhələnmişdi. Ona elə gəlirdi ki, bu sözü kiminsə yanında deyib. Çünki son bir ayda pulu olanlar da gəlib mal alıb borca yazdırır.

Axşam evə gələndə tez arvadı yanına çağırdı:

-Ay Telli, mənim o sözüm var idi ha, borc dəftərini yandırmaq məsələsi, onu bu qonşu arvadların yanında danışmamısan?

-Yox, mən evin sirrini qonşuya deyərəmmi, ay Abbas? Amma…

-Aha, nə «amma», danış görüm…
-Mən onu paltar yuyanda öz-özümə danışırdım ki, dükana olan ümumi borc 30 min manatdan çoxdu. Bu kişi o borc dəftərinin əvəzində məni yandırsa yaxşıdır…

-Niyə?

-A kişi, görmürsən, rayonlarımız bir-bir o murdar ermənilərdən təmizlənir, bizim kəndə nə qaldı! Bəs evi

nəynən tikəcəyik, ay evi tikilmiş???

-Qoy görüm sən də! Hökümət o boyda torpağı alırsa, camaata ev tikməyinə nə var?! Qurbandı yüz belə borc dəftəri, təki mən deyən olsun…

Abbas kişi bu sözü demişdi ki, birdən televizorda ordumuzun Qubadlını, artıq Şuşa istiqamətində əməliyyatlara başlanıldığını, hətta Daşaltı istiqamətində döyüşlərin getdiyini elan etdilər. Abbas kişi «Allah, sənə şükür, məni eşitdin!», deyib sevincindən bəlkə də son on ildə bir dəfə də olsun ürəklə boynunu qucaqlamadığı arvadını sinəsinə aldı, başını sığalladı. Yanağı pörtmüş Telli arvadla birgə sevinərək ağlaşıb bir-birinə qarışdılar…

***

Yuxusu ərşə çəkilmiş Abbas kişi bu dəfə dükanı lap erkən açdı. Sonra borc dəftərlərini qarşısına qoydu. Qərara aldı ki, bu gün kim mal alsa, pulsuz verəcək və adındakı borcu siləcək.



Həyəcanla dükanın qapısını döyən ilk müştərisini gözlədi. Heç beş dəqiqə keçməmiş məktəbdə hamının hörmət elədiyi, böyük nüfuz sahibi olan Sabir müəllim içəri girdi. Dərhal da axşamkı şad xəbərlə bağlı bir-birini təbrik etdilər. Sabir müəllim Şuşadan idi, bu günü həsrətlə gözləyirdi. Bir oğlu birinci Qarabağ müharibəsində şəhid olmuşdu.

-Hə, Abbas kişi, mənə iki çörək, 5 kilo un, bir də bir «zajiqalka» ver…

-Sabir müəllim, unu, çörəyi verirəm, amma «zajiqalka» bir dənədi, onu verə bilmərəm.

-Onda kibrit ver…

-İnan, bəxtindən kibrit qurtarıb, sabah gətirəcəklər…

-Əşşi, sən siqaret çəkən deyilsən, neyləyirsən ey «zajiqalka»nı?

Abbas kişi xoş təbəssümlə Sabir müəllimi dinlədi: -Bilirsən, Allahdan gizlin deyil, səndən niyə gizli olsun…

Abbas kişi kövrəlmişdi, sözünü tamamlaya bilmədi, cibindəki dəstmalı çıxarıb nəmli gözünü sildi…

Sabir müəllim tutulmuşdu:

-Əşşi, danış görüm, noolub? Nə baş verib?

-Bilirsən, əhd eləmişdim ki, ordumuz Şuşaya yaxınlaşanda bu borc dəftərini yandırım. Axşam eşitdin də, arzum çin oldu. Bu «zajiqalka» da buna görə mənə lazımdır. 6 dənə dəftərdir, bax burda, camaatın gözünün qabağında od vurub yandıracam… Kimi döyüşdədir, kimi döyüşçü ailəsidir, mənim də gücüm buna çatır. Hardasa, 30 min manatdan çox borc yığılıb…

Sabir müəllim, özündə deyildi, deməyə söz tapmadı. Abbas kişinin geniş ürəkli, mərd insan olduğunu bilirdi. Əlini cibinə atıb aldığı malların pulunu vermək istəyəndə, Abbas kişi: -Dayan, bu gün bu dükanda hər şey pulsuz olacaq, -dedi.

Sabir müəllim nə qədər cəhd etsə də, Abbas kişi, -Səni and

verirəm şəhid oğlunun ruhuna, məni incitmə, get, məktəbə gecikərsən…-deyib Sabir müəllimi qapıdan bayıra çıxardıb yola saldı. Dükanın ağzında isə 10-15 adam var idi. Sən demə, hamı bu söhbətləri eşidirmiş…

Abbas kişi hamını içəri dəvət edərək məqsədini bildirdi... İnsanlar bir-bir içəri girəndə başında qara kəlağayı olan bir qadın isə qəfil ayrılıb çıxıb getməyə başladı. Əlində nəsə bir vərəq vardı. Abbas kişi qonşusu Həcər nənədən soruşdu:

-Sən bilərsən, o qadın nəsə almağa gəlmişdi, bəs niyə çıxıb getdi?

Həcər nənə kədərli halda üzünü Abbas kişiyə tutdu:

-Bilirsən, Abbas qardaş, qadan alım, onun adı Sevildir, yoldaşı Ülvi bir aydan çoxdur müharibəyə getmişdi. Qonşumuzdur, müəllimədir, dünəndən bizə danışırdı, yoldaşı müharibəyə gedəndə sizdən 300 manatlıq mal alıb, amma borc qalıb. Qadın maaşını dünən alıb, bu gün gəlirdi ki, borcunu ödəsin… Amma…

Abbas kişinin üzünə payızda Şuşanın başı üzərində dolaşan qara buludlar kimi bir rəng çökmüşdü:

-Hə nə «amma», Həcər bacı, nə olub ki?!

-Bilirsən, elə indicə «voenkomat»dan gələn var idi, bir

mayor idi, dedi ki, yoldaşı bu gecə Daşaltı tərəfdə şəhid olub. O da mənimlə gəlmişdi ki, həm yoldaşının borcunu ödəsin, həm də un, yag alıb halva bişirtdirsin… Qəfil zəng gəldi, gedəsi oldu, bu 300 manatı mənə verdi ki, sizə çatdırım…

Abbas kişi dükana yığışanları elə ordaca qoyub Sevilin arxasınca qaçdı:

-Qızım… Dayan, dayan…

Dükandan xeyli aralanmış Sevilin ardınca qaçdığından Abbas kişinin nəfəsi təntimişdi. Dükanda növbə gözləyənlərin duruşunda isə bir kövrək hüzn vardı. Hamı yavaş-yavaş onlara tərəf gəlirdi.

Abbas kişi Sevilə çathaçatda arxadan bir də səsləndi:

-Qızım, dayan, səninləyəm, dayannn…

Sevil dayandı. Abbas kişi birtəhər özünə gəldi, təntimişdi, dili söz tutmurdu. Əlindəki dəstmalı yanağına çəkdi, sonra özünü ələ alıb:

-Qızım, sizin dükana borcunuz yoxdur… Yoldaşınız Ülvi ödəyib…

-Əmi, nə vaxt, harda ödəyib? Axı…

-Dünən…

-Necə yəni dünən… Axı o…

-Qızım, dünən orda… Döyüşdə…

Abbas kişinin bu dəfə gücü, ancaq göz yaşını silməyə çatdı…

Sevil müəllimə qara kəlağayısını əlinə alıb Abbas kişinin üzünə baxaraq susdu, heç nə demədən evlərinə tərəf addımladı... Qəsəbənin o biri başından isə Sevil müəlliməgilin evlərinə tərəf əllərində bayraqlar olan çoxsaylı insanlar gəlirdi…

**Müəllif:** Asif Mərzili

**GÜNNUR AĞAYEVANIN YAZILARI**

**>>>SATIŞDA OLAN KİTABLAR**

***Aşıq Qurban: -"Pərdəli gəzməyən nəzərə gələr."***

**Mustafa Müseyiboğlu adına kitabxana**




## ANALIQ HAQQI

*(hekayə)*

– Yoox! O ölməyəcək!

Ülviyyənin başı üstündən bir an çəkilməyən Elçinin bu etiraz nidaları reanimasiya otağının divarlarını aşıb xəstəxananın dəhlizlərinə

yayıldı. Həyat yoldaşının düçar olduğu ağır xəstəlikdən şəfa tapacağına hələ dünənədək inanır, ümidini üzmürdü. Xəstəni müayinə edən bir neçə həkimin son konsiliumunun qərarı bütün doğmaları kimi, Elçini də iliyinəcən sarsıtmışdı: “Ülviyyənin sağalmaq ehtimalı sıfra bərabərdir. Hepatit “S” virusu xəstənin qara ciyərini dağıdıb”.”

Elçin heç cür sakitləşə, özünə yer tapa bilmirdi. Yer-göy başına hərlənirdi. Bütün mövcudatı, varlıqları yaradan uca Tanrıya belə az qala üsyana qalxmaq istəyirdi.

Haləti anbaan dəyişən, başı üzərində ölüm kabusu dolaşan Ülviyyənin heyvatək saralmış bənizinə, hərarətin şiddətindən titrəyən dodaqlarına, məsum çöhrəsinə dağılmış pərişan saçlarına baxdıqca ürəyindən qara qanlar axır, iki gül üzlü körpəsini göz önünə gətirir, yeri-göyü xəlq eləyən Allahın bu zülmə necə rəva gördüyünü düşünürdü.

Ürəyini didib-parçalayan bir hiss də vardı: Ülviyyə üçüncü uşağa hamilə idi. Körpənin doğulmasına az qalmış ananın sarılığa tutulduğu bəlli olmuşdu. İlkin müayinələr ana bətnindəki dölün ürək döyüntülərinin zəif eşidildiyini göstərirdi. Hətta doğulsa belə, çağanın yaşayıb-yaşamayacağı sual altında idi. Bəzi həkimlər, heç olmasa, körpənin salamat qalması naminə addım atmağı məsləhət görsə də, ananın zəif, üzgün vəziyyəti bu istəyin də mümkünsüzlüyünü ortaya çıxarmışdı.

İndi isə Ülviyyə kəskin ağrılardan sayıqlayır, inildəyirdi. Nə yanına gəlib-gedənlərdən, nə də həkimlərin cidd-cəhdindən xəbəri vardı. Vena damarlarına vurulan iynələrin də artıq təsiri yox idi.

Gecədən xeyli ötmüş xəstənin vəziyyəti daha da kəskinləşdi. Zöhrə ana qızının saçlarını tumarlayır, ağrılardan qıvrılan balasına kədərli zümzümələri ilə son laylasını çalırdı. O sövq-təbii duymuşdu ki, bu səhər Ülviyyə üçün açılmayacaq…

* * *

Dəfn mərasiminə xeyli adam toplaşmışdı. Elçinə elə gəlirdi ki, izdihamın ucu-bucağı görünmür. Üstünə al-qırmızı ipək salınmış tabutun yanında addımlayan iki oğul atası sanki dünyanın ən ağır yerişini yeriyirdi. Evlərindən məzarlığadək uzanan bu yol elə bil heç vaxt bitib-tükənməyəcəkdi. Ayaqlarını güclə sürüyürdü. Gözləri önündə isə tamam başqa bir mənzərə açılırdı…

…Qonşu qızı Ülviyyə həmin gün həmişəkindən daha gözəl görünürdü. Boyuna biçilmiş gəlinlik donu, saçına taxdığı bəyaz güllər ona xüsusi yaraşıq verirdi. Toyun başlanmasına az qalmış sifariş etdikləri ağ “Limuzin”ə əyləşib Dənizkənarı parka, Xəzərin sahilinə gəldilər.

Hava küləkli idi. Köpüklü dalğalar bir-birini qovaraq sahilə çırpılırdı. Ləngər vuran ləpələr üstündə səsli-küylü qağayılar uçuşur, suya baş vurur, yenidən havaya qalxırdı. Çığırtısı lap aydın eşidilən bir cüt ağ qağayı dəstədən geri qalmışdı. Sevgililər qoşa süzən, bir-birinə mehr-ülfət bağlamış bu qanadlılara heyranlıqla baxır, onlara bənzəmək, daim birgə olmaq istəyirdilər. Ağ qağayılarla bahəm ənginliyə ucalmaq, sonsuzluğa qovuşmaq onların bu xoşbəxt anlarda ən ülvi arzusu, istəyi idi. Heyhat…

* * *

…Mollanın qəbirüstə oxuduğu Quran ayələri bitər-bitməz şirin xəyallarından ayıldı. Üzügülər, gözəl Ülviyyə artıq torpağa gömülmüş, son mənzilinə yetişmişdi. Taleyin hökmünə bax ki, bətnindəki körpəsini də özü ilə birgə haqq dünyasına aparmışdı.

Ülviyyənin vaxtsız ölümü Elçinə çalın-çarpaz dağ çəkmişdi. Ömür-gün yoldaşının itkisinə dözə bilmirdi. Bir yerdə qərar tutmaq müşkülə dönmüşdü. Qəhər onu boğur, dərd əlindən göyüm-göyüm göynəyirdi. Körpə balalarının ürkək baxışları ilə göz-gözə gələndə sarsılır, özünü günahkar sayırdı. Bəs indi o, balaca Şamilinə, Cəmilinə nə cavab versin? Balalarının dilindən "Ana"" kəlməsi qopanda onları necə ovundursun?

* * *

Həyətdə yas mağarı qurulmuşdu. Hüzr yeri dolub-boşalırdı. Qohum-əqrəba, qonum-qonşu, dost-tanış mərhumun ailəsinə, valideynlərinə, həyat yoldaşına başsağlığı verir, Allahdan səbr diləyirdilər. Ağır gündə dərd-sərinə yananların, kədərinə şərik çıxanların təsəllisi Elçinin başını qatır, ağrı-acısını bir qədər yüngülləşdirirdi.

Ağsaqqal Rəşid müəllim yeganə qızı Ülviyyənin qəfil ölümündən sarsılmış, kişinin qəddi əyilmişdi. Zöhrə ana dizinə döyüb, "balam, vay"" deyirdi. Nəvələrini sinəsinə sıxıb gəlininin ölümünə göz yaşı axıdan Ziba ananın ah-naləsi hamını kövrəldirdi.

* * *

Qırx mərasimi arxada qalmış, gəlib-gedənlərin sayı azalmışdı. Sən demə, çətin günlər hələ qabaqda imiş... Uzun illərdən bəri xəstəlikdən əziyyət çəkən Ziba xalanın ağrıları yenidən şiddətlənmişdi. Ana qayğısından məhrum olmuş balaca Şamil və Cəmil baxımsız qalmışdı. İxtisasca aviamühəndis olan Elçin işinə davam edir, çalışdığı ekipajın tərkibində uçuşlara yollanırdı. Uşaqlar xəstə nənənin ümidinə qalmışdı. Onların yeməyini bişirmək, paltarlarını yumaq... ömrünü-gününü əzablar içində keçirmiş ağbirçək qadın üçün asan deyildi. Körpələr tez-tez xəstələnir, titrədib-qızdırırdı. Cabir əmi, əmidostu Esmira dava-dərmanlarını alır, Mətanət bibi iynələrini vururdu.

* * *

Anasızlığın dadını görmüş uşaqların saralıb-solan çöhrəsinə baxmaq olmurdu. “Uşaq atadan yox, anadan yetim qalar”” ifadəsi, bəlkə, yüz kərə beynində dolaşırdı. Gözüyaşlı balalarına hər kəsdən munis olan bir varlığın yoxluğunu unutdurmaq, ciyərparalarının ana intizarına son qoymaq Elçinə mümkünsüz görünürdü.

Uşaqlar yuxuya gedəndən sonra ən ağır anlar başlayırdı. Ömrü yarıda qırılmış Ülviyyənin portretini əlinə alıb gözlərini gözünə dikir, onunla dərdləşirdi. Cavabsız qalan sualları isə bir deyil, iki deyildi...

* * *

Qardaş-bacıları, yaxınları, Ülviyyənin ata-anası bir yerə toplaşıb qərara gəldilər ki, Elçin evlənsə, körpələrə yaxşı olar. Onların qayğısına qalan, nazını çəkən anaya ehtiyacı var. Bu savab işi görəcək, sığala, tumara möhtac, nisgilli balaların qəlbini

ovunduracaq qadın, görəsən, kim olacaqdı? Belə məsuliyyətli, çətin işə qol qoyan, razılıq verən kəs dünyanın əməlisaleh, nəcib bir insanı ola bilərdi.

* * *

Elçinin tənhalığı, küskün görkəmi, içinə çəkilib ətrafındakılarla ünsiyyətdən qaçması iş yoldaşlarının gözündən yayınmırdı. Yaxşı ki, zərgər dəqiqliyi tələb edən işində diqqətli idi. Hələ Moskvada Ali Aviasiya məktəbində oxuduğu illərdən özünə bu keyfiyyəti aşılamışdı. Təyyarənin texniki cəhətdən sazlığına, uçuşa yararlığına bortmühəndis kimi cavabdehlik daşıyırdı.

Stüardessa Leyla ekipaj üzvlərinin ürək qızdırdığı, hörmət bəslədiyi, təmkini, ağlı və mədəniyyəti ilə seçilən qızlardan biriydi. Yaşı bir qədər ötsə də, şuxluğunu, təravətini itirməmişdi. Uca boyu, cazibədar görkəmi vardı. Elçinin mənəvi sıxıntılarına biganə qala bilmirdi. Taleyini ona bağlamağa, balalarına ana olmağa özündə güc-qüvvə tapa bilərdi. Hətta bunu ona xatırlatmışdı.

Elçin isə qərar verməyə çətinlik çəkirdi. Seçimində yanılmaqdan qorxurdu. Axı, bu, həyat məsələsi idi. Balalarının sonrakı taleyi atılacaq addımdan asılıydı. Leylanın növbəli işi, tez-tez uçuşda olması Elçini düşündürürdü. Həmişə yoldaşlarına zarafatla: “Sizi bilmirəm, mən göylər üçün doğulmuşam”” deyən Leyla peşəsini çox sevir, “məni mavi səmadan yalnız ölüm ayıra bilər”” deyirdi. Yeni qurulacaq ailəyə isə anasız qalmış uşaqlara ürəkdən bağlanan bir qadın gərək idi.

* * *

Anasına, qardaşı balalarına baş çəkməyə gələn Cabirin Elçinlə söhbəti qısa oldu:

– Yüz fikir bir borcu ödəməz, – deyiblər. Dərd xalvarla gələr, misqalla çıxar. Xəyallardan ayılmaq vaxtıdır. Uşaqların da, anamın da vəziyyəti yaxşı deyil. Gəlsənə evlənəsən…

Elçin zəndlə qardaşına baxdı:

– Elə bilirsən asandı?

– Bilirəm, sənin üçün çətin olacaq. Nə qədər ki, hələ körpədirlər, ağılları kəsmir, bu addımı atmalısan. Bacımız deyir ki, Həmidə xalanın qızı Lalə çox yaxşı qızdır. Bəlkə, anası ilə danışaq, fikrimizi bildirək?..

Ziba xala da söhbətə qoşuldu:

– Tanıyan-bilən o qızı çox tərifləyir, bala. Ağıllı, zirək, işgüzar olduğunu söyləyirlər. Bu evə belə bir gəlin lazımdı.

Elçinin susmaqdan başqa əlacı qalmadı. İki gün əvvəl, rəhmətlik Ülviyyənin anası Zöhrə xalanın dediklərini yaddaşında çözələyirdi: “Sənin və balalarının günahı deyil ki, amansız əcəl qızımı sizdən ayırıb. Körpələrə ana lazımdı, oğul…”

* * *

Günlərin birində Elçinə uzaq qohumlarından olan ailənin qızı ilə tanış olmaq imkanı yaratdılar. Bacı və qardaşının məsləhət gördüyü

qızla. Lalə ağbəniz, yaraşıqlı, təbiətən sadə və mehriban idi. Onu kiçik yaşlarında görmüşdü. Allahın möcüzəsi, ya nə idisə bu qız zahirən Ülviyyəyə bənzəyirdi və bu Elçinin gözündən yayınmadı.

Aralarındakı söhbət uzun çəkmədi:

– Analarını itirmiş iki körpəyə baxmaq, onlara dərdlərini unutdurmaq, tərbiyə vermək elə də asan olmayacaq. Subay adamla ailə qura bilərdiniz. Bu, sizin tərəfinizdən, vallah, fədakarlıqdı, – Elçin aramla danışır, Lalənin cavabını gözləyirdi.

Gözlərini bir nöqtəyə zilləmiş Lalə:

– Güman edirəm ki, bu yükü çiynimə götürə biləcəyəm. Allah bizə yardımçı olar…

* * *

Bu izdivaca hamı sevinirdi. Yeni ailənin təməl daşı qoyulmuşdu. Lalə uşaqlara “can”” deyib, “can”” eşidir, onların nazını çəkirdi. Düz doqquz aydan sonra ailədə bir oğlan uşağı da dünyaya gəldi. Şamilin, Cəmilin adlarına yaraşdırıb körpəni Ramil adlandırdılar. Hər şeyə qadir Allah bu nəcib qadına xoş əməllərinə görə şirin pay – övlad bəxş eləmişdi.

Gənc ananın qayğıları başından aşırdı. Çətinə düşəndə anası və qayınanası köməyinə çatırdı.

Ən çox sevinən isə həyatdan vaxtsız getmiş Ülviyyənin anası Zöhrə xala idi. O, nəvələrinə tez-tez baş çəkir, onların ana sevincinə

qoşulur, fərəhlənirdi. Cavan qızının ölümünə dözməyib dünyasını dəyişən Rəşid müəllimin ruhu ilə söhbət edir, ona təskinlik verirdi.

Ürəyi dərdli ana mehrini Laləyə salmışdı. Lalə də Zöhrə xalaya anası tək hörmət bəsləyir, ondan məsləhət alır, birlikdə ləziz xörəklər bişirirdilər. Lalənin anası Həmidə xalaya qoşulub xeyir-şər məclislərinə gedirdilər.

* * *

Ailə quranadək uşaq bağçasında tərbiyəçi işləmiş Lalə balacalarla dil tapmağı bacarırdı. Bu qabiliyyəti indi ana olandan sonra daha çox karına gəlirdi.

Yayın cırcıramasında Nardarandakı bağlarına köçür, bürküdən nəfəs təntiyən şəhərdən bir qədər uzağa çəkilirdilər. Uşaqlar Lalənin isti nəvazişi ilə böyüyür, xoş rəftarından pərvazlanırdılar. Bağ evinin qarşısındakı köklü-köməcli tut ağacının budağından asılmış yelləncəkdə yellənən oğlancığaz anasının şirin nağıllarına az qala uyumuşdu:

– Evin üçyaşlı, sonbeşik oğlu ərköyünlük edib sözə baxmırdı, Ramil bala, xörəyini yemirdi. Şanapipik uçub oğlancığazın boşqabını dimdiklədi…

Lalə elə bunu söyləmişdi ki, tut ağacından azca aralıda, təzəcə suvardıqları ləklərin yanında bir cüt şanapipik göründü. Uzun dimdikləri ilə torpaqdan dən axtaran çox qəribə və bəzəkli, narıncı zolaqlı quşları görəndə Ramil çox sevindi. Sual suala calandı.

– Bu quşlar başlarında niyə buynuz gəzdirirlər? Yoxsa, bunlar maral quşlardır?

Lalənin isə diqqəti eyvanda əyləşib şahmat oynayan Şamillə Cəmildə qalmışdı. Uşaqların fərasəti ilə yaşıdlarından çox fərqlənməsi onu sevindirir, ürəyini xoş hisslər bürüyürdü. Dünən – Ülviyyənin doğum günündə Elçinlə birgə onun məzarını ziyarət edərkən düşündüklərini indi pıçıltı ilə özündən soruşurdu:

– Görəsən, analıq haqqını qazana bilmişəm?..

**MÜƏLLİF: ZEMFİRA MƏHƏRRƏMLİ**

**ZEMFİRA MƏHƏRRƏMLİNİN YAZILARI**

>>>> **Zemfira Maharramli. The Swallow's Nest.**

**"ƏDƏBİ OVQAT" JURNALI PDF**

**"YAZARLAR" JURNALI PDF**

**"ULDUZ" JURNALI PDF**

**"XƏZAN"JURNALI PDF**

**WWW.KİTABEVİM.AZ**

**Mustafa Müseyiboğlu adına kitabxana**




**Durnalar Qarabağa qayıdır.**

(*hekayə*)

*II Qarabağ savaşında şəhid olmuş müəllimlərin xatirəsinə*

2 ay xəstəxanada yatdıqdan sonra üzücü qış aylarını evdə keçirmişdim.Baharın gəlişini səbirsizliklə, həm də bir az əsəbiliklə gözləyirdim.Kəndə getməyə səbirsizlənirdim.Çox istəyirdim, bu baharı ürəyimcə qarşılayım,yazın hər anının şahidi olum . Düzdü, bənövşə ilə alçanın çiçəkləmə vaxtını ötürmüşdüm.Çünki bizim yerlər nisbətən isti bölgədir, bənövşələr tez açıb, tez sovuşur, alçalar da başqa ağaclardan tez çiçəkləyir.Amma, sağ olsun qardaşımın qızı, bənövşənin şəkillərini çəkib yollayırdı mənə.Bir dəfə də qardaşım bizə gələndə bir böyük dəstə tutub yollamışdı.

Qardaşım günortadan sonra gəlmişdi, dedi ki, anam yollayıb, get Qayanı gətir, kənd havasını çəksin ciyərlərinə.Kənd səfərinə ailəliklə hazırlaşdıq.Uşaqlar da sevinirdilər.Yoldaşımın sevincinə isə, mənimki kimi, həyəcan və təlaş qarışmışdı.Anam mənim necə və hardan yara aldığımı indi öyrənəcəkdi.

Müharibə başlayanda kənddən gəldiyim bir həftə idi.Builki məzuniyyətimin hamısını kənddə keçirmişdim.Anamla, uşaqlarla gözəl anlar yaşamışdıq.Bəlkə, elə buna görə anam məni telefonla uğurlayanda çox sakit danışmışdı. Nə yaxşı ki, mən 2 ay xəstəxanada yatanda, sonra evdə keçdiyim o ağır günlərdə sözümə qulaq asıb anamı yanıma gətirmədilər.İndi özümə söz verdim ki, bütün yazı anamla bərabər olacağam.

Axşamdan qərara gəlmişdik ki, səhər tezdən yola çıxaq , evə tez çataq deyə .Zarafat deyil, dörd saatlıq yol idi.Yəqin ki, əvvəlki vaxtlarım olsaydı, qardaşım üç saata çatdırardı bizi.Heç mən özüm də buna etiraz etməzdim. Amma indi vəziyyət başqa idi.

Kənd həvəsinə oğlumla qızım hamıdan tez oyanmışdılar.Yoldaşımla uşaqlar arxada oturdular.Qardaşım mənim arabamı maşının arxasına qoydu. Yol aldıq kəndə sarı. Yol boyu uşaqlar keçən ilki kənd macəralarından mübahisə edə-edə danışırdılar. Qardaşım mənim kimi deyildi,az danışan idi. Ona görə də
musiqiyə qulaq asırdıq, arada mən bəzi suallar verirdim. Artıq Bakıdan çıxmışdıq, yolumuz bölgələrdən keçirdi.Radioda müharbədən bəhs edən veriliş başladı. Qardaşım söndürmək istədi, mən qoymadım. Arada müsiqi də verirdilər. Bir qiraətçi şeir oxumağa başladı.

Payızı göz yaşlarıyla yola salmışdım.
Budaqları qırılmış
vətən ağacından
yarpaq-yarpaq düşən
şəhid balalarçün
payız dolusu ağlamışdım.
Tək təsəllim oldu ki.
Şuşada, Suqovuşanda
itkin balalar kəfənsiz qalmasın deyə
anam təbiət bürüdü

hər yanı ağ örpəyə.
Ümidlə qarşıladım baharı,
inandım ki, günlərin birində
ağ atın üstündə
evlərinə dönəcəklər,
doğmalarını görməyə gələcəklər
Şəhidlər.
Döndülər, səmalarda.
atəş olunb yandılar,
laləli çəmənlərə
bayraq kimi qondular
Şəhidlər.
Yaşıl çəmən,
al lalə, mavi səma.
Hər şəhid bayraq olub
əl eyləyir adama.

## Mustafa Müseyiboğlu adına kitabxana

Şeir bitəndən bir neçə saniyə sonra səssizliyin fərqində oldum.Bayaqdan dil boğaza qoymayan uşaqlar da susub durmuşdular. Pəncərədən çölə baxanda gördüm ki, yol taxıl tarlalarının arasından keçir. Gözümü tarlaya zillədim, uzaqdan qızartı gördüm, sonra qızartı artmağa başladı. Tez qardaşıma dedim:

– Nail, saxla maşını.

Maşını yolun qırağına verib saxladı qardaşım. Xahış etdim, məni düşürsün. Qardaşım məni arabama əyləşdirdi, arabanı tarlanın içi ilə sürməyə başladı. Yoldaşımla uşaqlar da arxamızca gəlirdilər. Qarşıdakı üç-dörd topa laləyə çatdıq. Yüngül səhər mehi əsirdi, sanki lalələrin ləçəklərin qarışıq salmaq istəyirdi. Lalələr isə ləçəklərinin düzənini saxlamağa çalışanda gülümsəmiş kimi

görünürdülər. Bayaqkı şeirin son misralarını xatırladım.

Yaşıl çəmən,
al lalə, mavi səma..

Birdən qıy səsləri səmanı bürüdü. Qardaşımla eyni anda başımızı qaldıb göyə baxdıq. Bir dəstə durna gedirdi. Baxışlarımla durna qatarını müşayiət etməyə başladım. Qeyri-ixtiyari gözümdən yaş süzüldü. Qardaşım əlini çiynimə qoydu:

– Nə oldu sənə, Qaya?

Cavab vermədim. Yalnız durnalar gözdən tam itəndə dedim:

- Gedək, Nail.

Maşına oturub yolumuza davam etdik. İçəridə yenə səssizlik hökm sürürdü. Beş dəqiqədən sonra sükutu mən pozdum:

– Müharibə başlayandan bir həftə sonra hissəmizə yeni döyüşçülər gətirdilər. Demək olar ki, hamısı könüllülər idi.21 -30 yaş arasında. Tanış olanda biri diqqətimi daha çox çəkdi. Çox gözəl siması vardı, sanki qız gözəllliyi çökmüşdü üzünə. Dəniz kimi mavi gözləri ağ çöhrəsini işıqlandırırdı.

– Adın nədi, əsgər?

– Fateh.

Sifətimdə yaranan təbəssümə etiraz edirmiş kimi qəddini daha da dik tutub davam etdi:

– 22 yaşım var, ordudan iyun ayında tərxis olunmuşam, alı təhsilliyəm, ixtisasca tarix müəllimiyəm.

– Deməli, könüllü olaraq tarıx yazmağa gəlmisən?

– Niyə də yox, tariximizi saxtalaşdırmağa çalışanların cavabını kim verməlidir bəs?

Cavab çox xoşuma gəldi, öz-özümə “Belə gənclərlə qalib olmamaq olar?”- deyib digərləri ilə tanış olmağa davam etdim. Axşama yaxın döyüş hazırlıqlarını bitib ona yaxınlaşdım. Söhbət zamanı işləyib işləmədiyini soruşdum. Məlum oldu ki, imtahan verərək ucqar bir kənddə müəllim kimi bu il fəaliyyitə başlayacaqmış. Dedim ki, müəllimlik də elə hərbçi kimidir, biz

torpağın keşiyində dururuq, siz nəslin bilik və tərbiyəsinin. O, könüllü gəlməyinin səbəbini izah etdi.

## Mustafa Müseyiboğlu adına kitabxana

– Qarabağ mənim ata-baba yurdumdu. Mən dünyaya bu torpaqlar işğal olunandan sonra məcburi köçkün kimi gəlmişəm. Bu ad da mənimlə bərabər doğulmuşdu sanki. Ağlım söz kəsəndən hər yerdə özümüz haqda bu sözü eşidirdim, küçədə, məktəbdə. Düzdü, səbəbini bilirdim, amma böyüdükcə toxunurdu bu ifadə mənə. Biz çoxları kimi Bakıya pənah aparmamışdıq, atamın əsgər yoldaşı bizi öz rayonlarına çağırmış, yaşadığı kənddə onların evində məşkunlaşmışıq əvvəlcə. Sonra kənd camaatı yığışıb bizə ev tikib, təsərrüfat yaratmağa kömək edib. Mən o evdə doğulmuşam. Amma bütün böyüklərimiz ” evimiz” deyəndə anlayırdım ki, söhbət bu evdən getmir. Ailəmizin böyüyü atamın nənəsidir Bacım da, balaca qardaşım da, mən də “böyük nənə” deyirik ona. Böyüdükcə fikir verirdim, hər payız böyük nənəm göyə baxıb ah çəkirdi, dodağı altda deyirdi”görəsən qayıdacaqlar?” Bahar gələndə də göyə baxıb kövrəlirdi”eh, bu baharı da qayıda bilmədilər”. Bir payız yenə böyük nənəm durnaların arxasınca baxıb ah çəkəndə soruşdum:

– Böyük nənə, sən niyə belə deyirsən?

Nənəm sulanmış gözlərini silib dədə-baba yurdlarını necə tərk etmələrini, ermənilərin vəhşiliklərini, oğlunun, ərinin şəhid olmasını danışdı.Dedi ki, bizim torpaqlarımız, qəbirlərimiz, arzularımız ermənilərin əsirliyində qalıb. Daha durnalar da o yerlərə uçmur. Gərək topaqlarımız əsirlikdən azad olsun ki, durnalar da bizimlə bərabər doğma ocaqlarına qayıtsın. Onda mən nənəmə söz verdim:

– Böyük nənə, mən böyüyüb əsgər olacağam, erməniləri torpaqlarımızdan qovacağam, səni də götürüb evimizə gedəcəyəm, biz durnaları evimizdə qarşılayacağıq!

Nənəmi qanadlandırdı mənim sözlərim, mən bunu onun qığılcımlar qaynaşan gözlərindən hiss etdim. Boynumu qucaqladı, əvvəl alnımdan, sonra gözlərimdən öpdü:

- İnşallah, mənim balam, atan nahaq yerə adını Fateh qoymayıb ki?

Elə ona görə də evdə məni davaya yox, toya gedirmiş kimi yola salıblar. Siz bir nənəmin sevincini görəydiniz. İndi nənəmə verdiyim sözü yerinə yetirmək imkanı yaranıb. Həm də öz şagirdlərimə kitablardan öyrəndiklərimlə bərabər, iştirakçısı olduğum tarixi danışacağam.

Biz daha çox gecələr döyüşürdük.Həm özümüz hücuma keçir, həm də düşmənin artilleriya hücumunun qarşısını alıradıq.Fateh heç vaxt öz topunun arxasından çəkilmirdi, qoymurdu kimsə onu əvəz etsin.Gündüzlər də yatmaq imkanından çox az yararlanırdı. Bir dəfə bunu ona irad tutanda dedi:

– Komandir, mən bu şərəfli tarixin bütün anlarını yaşamaq istəyirəm, qayıdanda nənəm məndən hər şeyi təfərrüatı ilə soruşacaq.

Yadıma keçən il bir yaşlı kişinin söhbəti düşdü. İşlə əlaqədar təcili bir rayona getməli idim. Bir günə gedib qayıdacaqdım. Maşını səhər tezdən avtovağzaldan sürdüm ki, bəlkə o rayona gedən oldu, yolu tək getməyim, həmsöhbətim olsun. Bir yaşlı kişi gedirdi o rayona, amma tərəddüd edirdi, səbəbini duyub dedim:

– Narahat olma, əmican, pul almayacağam,özümə yol yoldaşı axtarıram.

Yol boyu məlum oldu ki, məcburi köçkündü, rayonda yaşayır, Bakıya həkim müayinəsinə gəlibmiş. Çox şeydən danışdıq. Danışdıqlarından anladım ki, ümidsizliyə qapılıb.
Dədə-baba torpağına qovuşmaq ona yuxu kimi gəlir. Kişiyə ürək-dirək vermək istədim:

– Darıxma, əmican, tezliklə alacağıq o torpaqları

– Eh, ay oğul, gecikirik e yaman, o vaxtdan bir nəsil doğulub

yetişib, o torpaqların havasını udub nemətləri ilə böyüməyən çətin onu almaq barədə düşünsün.

- Düz fikirləşmirsən, əmi, o nəsil alacaq o torpağı, həm də tezliklə. Bəlkə, sən deyən kimi bir-iki nəfər tapıldı, amma burda günah onların deyil. O nəslə torpaq sevgisini biz böyüklər aşılamalıyıq.

Və mən yanılmamışdım, Fateh tək deyildi, bölməmdə onun kimi könüllülər çox idi.

Biz irəliləyirdik. Yaralılarımız, şəhidlərimiz olurdu. Hamı sabah onları da bu tale gözlədiyini bilə-bilə vuruşurdu. O gecə həlledici döyüş olacaqdı, biz nəyin bahasına olursa-olsun irəliləməli idik. Hücumun qızğın çağında düşmən mərmisi yaxınlıqda partladı. Əsgərlərdən biri mənə tərəf sürünrək qışdırdı:

– Komandir, Fateh yaralandı

Sürünə-sürünə ora yaxınlaşdım. Fateh çabalayırdı, böyründə qan gölməçəsi yaranmışdı. Əlimi yarasının üstünə basıb" Qorxma, Fatehim, qorxma"-dedim

O isə zorla bunu xırıldadı

– Komandir, durnaları... mən... qaytara bilmədim...siz qaytarın.

İkinci mərmi partlayanda uçduğumu hiss etdim, onu da hiss etdim ki, yüngülləşmişəm, uçan bədənimin hamısı deyil.

Gözümü xəstəxanada açanda qışqırdım:

– Mən burda nə edirəm, hanı mənim əsgərlərim?

Bütün xəstəxana heyəti başımın üstünü kəsdirdi:

– Müharibə qurtarıb, biz qalib gəlmişik.

Yavaş-yavaş anladım ki, yaralanmağımdan xeyli vaxt keçib, həm də anladım ki, Fateh şəhid olanda mənim də ayaqlarım şəhid olub.

Yenə sükut çökdü aralığa, heç kim danışmırdı. Qardaşım yenə radionu açdı. Yenə həmin qiraətçi şeir oxuyurdu:

Salamat qal oralarda,
"Vətən" deyib ölən şəhid.
Durna olub hər baharda

Vətəninə dönən şəhid.

Kəndə çatmağa az qalmış özümçün qərar verdim, anamı, qohumlarımı görəndən sonra səhərdən başlayaraq el-el gəzəcəyəm,daha doğrusu, qardaşım gəzdirəcək məni. Şəhid olmuş əsgərlərimin qəbirlərini ziyarət edəcəyəm. Birinci Fatehdən başlayacağam. Deyəcəyəm ki, rahat uyu, Fatehim, durnalar bu bahar Qarabağa qayıtdı. Həm də öz qanadları ilə yox, sənin ruhunun qanadı ilə.

**Müəllif: Səmsiyyə QARAMANLI**

**WWW.KİTABEVİM.AZ**

**SƏMSİYYƏ QARAMANLNIN YAZILARI**

**Mustafa Müseyiboğlu adına kitabxana**

WWW.KİTABEVİM.AZ
KİTABEVİM.AZ
kitab marketi



**Həyat dərsi**

Bir müdrikdən soruşurlar ki, : “Dünyada ən çox kimi sevirsən?” O söyləyir ki, dərzimi sevirəm.

Maraqlıdır deyilmi? İndi mənanı açaqmı?

Dərzinin yanına nə vaxt getsək, ölçümüzü alıb, bədənimizə uyğun olanı tikəcək. Digər insanlar isə haqqımızda olan təəssüratlarını ölənəcən dəyişmirlər. Axı insan dəyişə bilər, niyə bunu anlamırlar ki...

Bir söz bir qərarı, bir hiss həyatı, bir insan insanın özünü dəyişə bilər. Bu cümləni nə vaxtsa, oxuduğumu xatırladım.

Yaxşı, razılaşdıq ki, dəyişə bilər. Bəs dəyişməyən insanlar varmı? “Qozbeli qəbir düzəldər” atalar sözünü xatırlatsın.
Əlbəttə, var və olacaqdır da. Hər kəs eyni xarakterə malik deyil ki. Nə edək belə insanlarla? Həyat insanlara neçə dəfə anlatsın ki, dəyər verərkən elə dəyər verin ki, sonunda dəyərsiz olduqda şam kimi sapına lənət oxumayasınız. Kibritin nə günahı var ki.. Körpə neçə dəfə yıxılır, amma sonunda yeriməyi öyrənir. Amma biz böyüklər neçə dəfə içdən yıxılsaq da, dost-düşməni tanımırıq ki, tanımırıq. Ağaca dəyən balta neçə dəfə vurulduqdan sonra kötük aşır. İnsan da belədir özü onu dəyərsiz edənə şans verir ki, gəl, buyur...İllər dərs verir, biz isə həyat dərsindən sinifdə qalırıq. Ayılanda isə saçımız, saqqalımız ağ olur. Bəzilərimiz üçün bu bəyazlıqda heç nəyi anlatmır. Elə necə var idik, elə də qalırıq. İllər keçir, biz isə həyat dərsindən kəsilib aşağı siniflərdə qalırıq.
Albert Eynşteynin bir fikri yadıma düşdü:” Uğurlu insan olmaqdansa, dəyərli insan olmağa çalışmaq lazımdır”.
Həqiqətən, bizə verilən dəyəri dəyərləndirək. Çünki hər adam hər adama dəyər vermir.
Dəyərsiz olduğumuzu anladığımız zaman bilək ki, qarşımızdakı özünü mükəmməl sayır, bəli mükəmməl. O zaman “o mükəmməli” tənha buraxmaq lazımdır. Çünki o özü dəyərlə dəyərsizin nə olduğunu anlayıb peşman olacaq. Çox təəssüf ki, bu zaman ” daldan atılan daş topuğa dəyəcək”. Qanqal harada olsa, qanqaldır, nə fərqi məkanın. Ovçunun vurduğu ovun çırpıntısana məyus baxmağı heç nəyi dəyişmir. O ov artıq məhv olmuşdur. Əvvəlcədən düşünmək lazım idi. Zəhər ilanın həyatının bir parçasıdır, amma ilana toxunanın ölümüdür axı...Dəniz dəniz canlılarının həyatıdır, üzə bilməyən insanların
məzarıdır axı...
Allahın yaratdığı möhtəşəm və heyrətamiz varlıqdır İnsan,niyə qəlbləri qıraq ki, niyə dəyərsiz edək axı. Uca Rəbbim qəlbləri sevərək yaratmışdır. Qəlb ətdəndir, amma ən tez qırılandır.

Qırmayaq qəlbləri ahı ağırdır. Əksinə, şad edək, özümüz də sevinək və rahatlıq tapaq. Allah insanlığın dərdinə şərik olanlara səbir verib, gücləndirsin! AMİN!

**Canın sağ olsun, canın sağ olsun!**

Yoxluğunda qələmim iti bir bıçaq,

Heç əllərim də onu istəmir.

O da can atmaz, əllər ondan qaçaq…
Saniyəölçən matəm havasında sürünür,

Dəqiqələr "möhtəşəm yası" davam etdirir.

Aritimiya saatı çoxdan unutdurub…

Saat sevgidən məhrum olmuş bir qoca,

Bu qoca çılğınlıqla ölümü arzular,

Arzu Əzrailin gəlişində bayram…

Ölüm qurtulmaqmı, de bu bəladan?

Ruhun sevdiyin ölüm alarmı?

Suallarım qulağında ildırım misalı.

Bağışla, çox yordum sükutunu…

Elə bil divarla danışıram axı,

Yenə də divara söykənmək olar.

Sənə söykənən yerdə çabalar…

Asıram özümü dərd kəndirindən,

Canın sağ olsun, canın sağ olsun!

**Qara qış yuxusuna, ağ boya taxta çıxdı**

Oxuyuram gözündən,

Qəlbinin ağrıların.

Gözlərimdə canlanır,

Oxuduğum mənzərə..

Nə çoxdur qara boya,

Çoxmu sevirsən onu?!

Boyanıb qara rəngdə,

Qəlbinin divarları.

Qara libas geyinib,

Titrəyən damarları.

Qəlbinin lap küncündə,

Paslı sandıq gizlənib.

Üstündə qara kilid.

Özünün öz qəlbindən,

Gizlətdiyin sirmi var?!

Axı qəlbindir, dostum,

Gizlətsən də anlayar.

Bir izn ver, sən  Allah,

Açım mən o sandığı.

Niyə xəsis olmusan?!

Paylaşsana mənimlə.

Dilin başqa söz deyir,

Qəlbin boynuna almır.

Söylə, görüm bir zaman,

Ağ boyanı sevdinmi?!

Nələri gizləyirsən?

Gözləri kədər İnsan.

Qüssə sənə sarılı,

Onumu izləyirsən?!

Gəl izn ver gözlərinə,

Məni alsın qəlbinə.

Qara boya tələsik

Ağ boyaya bürünsün.

Ala -qaranlıqda heç,

Düşündünmü nə olur?

Gecəylə səhər gizli

Vallah, qol-boyun olur.

Gözün səndən xəbərsiz

Qapını mənə açdı.

Budur keçdim qəlbinə,

Sandıq özü açıldı.

Kilid yaman qorxaqdı,

İndi bildim sandıqda

Sevgi özü dustaqdı.

Məni görən bu dustaq

Ətrafa nur saçırdı.

Qara əşyalarını,

Yığışdırıb qaçırdı.

Budur qəlbin divarı,

Qırmızıya boyandı.

Qara qış yuxusuna

Ağ boya "taxta çıxdı."

**Buxar dövrüm**

Mənim kədərimin dili tutulub,

Söyləyə bilməyir yaşananları.

Səninsə,sevginin dili uzundur

Durmadan bildirir öz hisslərini.

Mənim qulaqlarım həvəsdən düşüb

Bağlayıb qapısın dəmir zəncirlə,

Sənin qulaqların çox həvəslidir

Gözləyir səsimi uşaq həvəsiylə.

Dilimi çəkicə gəl döndərmə sən,

O kövrək qəlbini mən sındırmayım.

Qəzəbli çəkici necə saxlayım?

Axı necə edim, səni qırmayım…

Səmanın  bəzəyi-Günəş görürsən,

Nur kimi görünən bir zülmətəm mən.

Ömrünə buz tutmuş Günəşmi lazım?

Bəzən də gizlənər min kədər, min qəm,

Saxta partılının saçaqlarında.

Susubdur ilhamım, yazmaz qələmim,

Gəl məndən bahara tərif istəmə.

Görürsən ömrümdə boranlı qışdır,

Yaz məni qəlbinə qara nöqtətək,

Axı söyləmişdim, düşmə izimə,

İndiki gəlmisən, son dəfə dinlə

Yalanlar dəryası, qəm otağında,

Keçib əyləşmişəm süfrə başında.

Bir dayan, süfrəmə yaxınlaşma sən,

Yox, qəddar deyiləm, istəmirəm mən.

Acıdan, kədərdən qidalanasan,

Gecəni əyninə geyən qadını

Gözlərin əbədi sevə bilərmi?

De onlar doymazmı bu qaranlığa?

Buz parıltısına aşiq olanlar

Dözə bilməzlər ki, soyuqluğuna,

Buz vərdişkarıdır soyuq şaxtanın

Alovlu nəfəsdə buxara dönər.

Əlini atsan da, tuta bilməzsən

Buxarın qanadı səmanı sevər,

Sevgi dəryasıydı məskənim mənim.

Eşqdən yananlara sərinlik idim,

O soyuq şaxtaya aşiq olarkən

Billməzdim sevdası buza döndərər.

Elə tilsimdir ki, pozulmaz sehri

Deyirlər qorxusu ” üçə” bağlıdır,

Dəryada günlərim indi xatirə

Ömrümün ən uzun dövrü buz imiş.

Günəş nəfəsilə gecikən insan,

Ömrümün sonudur, çox gec qalmısan.

Buz dövrüm əriyir, can verir artıq,

Bilirəm dəryada yerim yox mənim

Səmalar gözləyir buxar dövrümü!

**Müəllif: Ülviyyə ƏBÜLFƏZQIZI**

**ÜLVİYYƏ ƏBÜLFƏZQIZININ YAZILARI**

**"ƏDƏBİ OVQAT" JURNALI PDF**

**"YAZARLAR" JURNALI PDF**

**"ULDUZ" JURNALI PDF**

**"XƏZAN"JURNALI PDF**

**WWW.KİTABEVİM.AZ**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**Təranə DƏMİR**

## UŞAQLIQ ŞƏKİLLƏRİMƏ

Hamı şəkillərdə köhnə vaxtdadı,
Hamı gözlərində gülüş dayanıb.
Hamı məhəbbətlə sığallanıbdı,
Hamı yanağında öpüş dayanıb.

Nimdaş paltarında, təzə donunda
Necə bəxtəvərdi şəkil uşaqlar.
Elə bil tərtəmiz göz ekranıyla
Sevincin rəsmini çəkir uşaqlar.

Heç kimin dünyadan xəbəri yoxdu,
Xoşbəxtdi çərçivə içində hamı.
Keçmiş zamandadı burda hər nə var,
Burda salamlayır illər adamı.

Hələ sabahından xəbərsiz baxır
Şəkildən üzümə gülən uşaqlar.
Hamısı  bir boyda ,bir biçimdədi–
Qaraşın uşaqlar, kürən uşaqlar.

Hələ  günahsızdı, hələ  qınaqsız,
Hələ  ürəyimiz girov düşməyib.
Hələ bant bağlayıb saçına qızlar,
Hələ ki, oğlanlar kişiləşməyib.

Hələ yol gedirik sabaha sarı,
Hələ ki, aldadır nağıllar bizi.
Hələ ki, şeytanlar, cinlər  yol  gəlir,
Hələ ki, axtarır  paxıllar bizi.

Başımız qarışıb   qovub tutmağa,
Yoruruq yolları, qayalıqları.
Hələ keçməmişik  həsrət  içindən,
Hələ dadmamışıq ayrılıqları.

Hamı şəkillərdə köhnə vaxtdadı,
Hamı gözlərində gülüş dayanıb.
Hamı sevgi ilə sığallanıbdı,
Hamı yanağında öpüş dayanıb.

**BİZİMDİ**

Bu günü təqvimdən oğurlamışıq,
Bu günəş bizimdi, bu səhər bizim.
Bu yol, bu ağaclar, bu daş, bu divar,
Bu küçə bizimdi, bu şəhər bizim.

Səni ovuduram baxışlarımla,
Həsrətin ağrısı canından çıxır.
Bu gün Yer də bizim, Göy də bizimdi,
Bu gün başımıza səadət yağır.

Bizi unutmayıb sahil deyəsən,
Bizi xatırlayır görüş yerimiz.
Bu gün od vurmuşuq xatirələrə,
Bu gün yandırmışıq ayrılığı biz.

Dalğalar sahilə çırpır özünü,
Bizi salamlayır dəniz beləcə.
...Hələ ki, sabaha bir ömür qalıb,
Gəl tut əllərimdən bu gündən keçək.

**İNDİ BU PAYIZDAN ...**

İndi bu payızdan şəhid qoxusu,
İndi bu payızdan qan iyi gəlir.
Nə dilin dönür ki, yamanlayasan,
Nə də gəlişini  sevməyin gəlir.

Həsrət havası var çöldə, bayırda,
Boşalır buludlar, dolur buludlar.
Torpaq qol götürüb oynayan anda
Başının üstünü alır buludlar.

Neçə arzu yatır xəzəlin altda,
Üstünü, başını örtüb gedirik.
Hələ ki, gizlənib günəş buludda,
Küləkdən , yağışdan tutub gedirik.

İndi bu payızın sevdası ayrı,
İndi bu payısın odu başqadı.
İndi bu payızın mayası ayrı,
İndi bu payızın dadı başqadı.

Küsübdü dərələr, dağlar adamdan,
Yamaclar qanrılıb üzünə baxmır.
Şair olduğun da çıxır yadından,
Qələm də, varaq da sözünə baxmır.

İndi bu payızdan şəhid qoxusu,
İndi bu payızdan qan iyi gəlir.
Nə dilin dönür ki, yamanlayasan,
Nə də gəlişini sevməyin gəlir.

## QOCA

Yol-yol, küçə- küçə sürünən qoca,
Əlin ətəyindən uzun ,gedirsən.
Bəlkə neçə- neçə günahlarından,
Bəlkə savabından küsüb gedirsən.

Ləpirin yollardan utanır, bəlkə
Yollar da utanır izindən sənin.
Elə töyşüyürsən, sanki bu dünya
Asılıb bu yorğun dizindən sənin.

Köhnə papağın da başından düşür,
Papaq da yekədi başından, qoca.
Göy üzü qapısın açıb haçandı,
Səni kim alacaq qışından, qoca

Bu şəhər, bu küçə, bu it, bu pişik
Topal yerişindən tanıyır səni.
Bəlkə də yanından keçən cavanlar
Qəlbində o ki var qınayır səni.

Sökük çəkmələrin yorub yolları,
Bezibdi bu şəhər, bu küçə səndən.
Bu daşlar, divarlar, evlər, ağaclar
Şəkil çəkdirirlər gizlicə sənnən.

Daha arzular da yorğun düşüblər,
Əlindən tutmağa gücü qalmayıb.
Şəhərin başına dolanıb ömrün,
Daha aldanmağa küçə qalmayıb.

Özün də bilmirsən nə istəyirsən,
Hayana sürüyür ürəyin səni?
Sağından, solundan gözəllər keçir,
Vurur saçlarının küləyi səni.

Şəhərin səs-küylü küçələrində
Küləklə, yağışla sevişən qoca.
Çəlik ayaqların sözünə baxmır,
Alçaqda, çökəkdə sürüşən qoca.

** ** **

Anam bu dünyadan köç edəndən sonra
başa düşdüm ki, məzarlıqda bir şəhər adam varmış sən demə.
Gördüm ki, dayanıb səbirsizliklə sahibini gözləyən qapıya bənzəyir
burda qəbirlər.
Ayaqları torpaqdan, baxışları yoldan asılan
Körpə qəbirlər, qoca qəbirlər,
Ana qəbirlər, ata qəbirlər.
Bəzilərinin ətrafında əl ələ verib keşik çəkir
Daş hasarlar, dəmir çəpərlər.
Bəzilərinin yanı, yörəsi boşdu hələ.
Hər yandan üzünə yorğun-yorğun
baxır ot basmış köhnə ləpirlər.
Təzələrinin üstü-başı yaşdı hələ.
“Burda ölülər adamı yanıq qoxusundan,
Bir də ölüm qorxusundan tanıyır”.
Kimdənsə eşitmişəm,
Ya hardasa yazılıb…
Ölülər durub qaçar deyə
Məzarlığın girişindən yekə qıfıl asılıb.

** ** **

Hardasa bayquş ulayır bir ümidin xarabalığında ,
Kimsə daş atır gecəyə,
Bayquşun səsi çiliklənib tökülür dünyanın başına.
Tanrı gördümü?
Görəsən kim düşdü bayquşun qarğışına?

** ** **

Bu sevgi ölümdən keçib,
Təzədən bir də doğulub.
Göyün üzündə əkilib,
Qayıdıb yerdə doğulub.

Yanıb, kül olub odunda,
Külündən keçib qayıdıb.
Min yol şeytanın , iblisin
Feilindən keçib, qayıdıb.

Bu sevgi qandan, qadadan,
Bu sevgi zülümdən gəlib.
Göy yarılıb, göydən düşüb,
Tanrının belindən gəlib.

**Müəllif: Təranə DƏMİR**

**TƏRANƏ DƏMİRİN YAZILARI**

**“ƏDƏBİ OVQAT” JURNALI PDF**

**“YAZARLAR” JURNALI PDF**

**“ULDUZ” JURNALI PDF**

**“XƏZAN”JURNALI PDF**

**WWW.KİTABEVİM.AZ**



14 may 1993-cu il. Yaşma. Hərbi And içmə günü. Fotoda nisbətən hündür əsgər Zaur İbrahimov, ortada şəhid Elxan Hüseynovun anası, əfsanəvi qəhrəman Nurcahan Hüseynova və Zaur Ustac.

## BU BELƏDİR...

*(Əsgər haqqında ballada...)*

Nədir yenə, ümman kimi,
çalxalanıb, coşdun, ürək?
İçindəki bu təlatüm,
bu oyanış de nə demək?
Həsrətdənmi, nisgildənmi,
Ürək, yenə çağlayırsan?
Anasına həsrət qalmış,
Körpə kimi, ağlayırsan…
İçindədir; ümid adlı,
qığılcımın od-alvu,
tərslik etmə, dəli könül,
intizara alış, yovu!!!
Həqiqətlər qarşısında,
Biz gücsüzük, biz heç nəyik,
Dinlə məni deyim, ürək,
Biz nəçiyik; şan-şöhrətli,
– “hüququndan keçmiş əsgər”,
həmdəminə həsrət canıq,
bəzən canlı, bəzən cansız,
biz “robotuq”, biz “əşyayıq”…
Bu torpaqdan yoğrulmuşuq,
Bu torpaqdan doğulmuşuq,
Yardan əfsəl, anamızın
Qulluğuna buyrulmuşuq!!!

*15.04.1995. Marağa.*

## QUCAĞINI GENIŞ AÇ…

*(Gizir Pəncəli Teymurova həsr olunur.)*

Qucağını geniş aç, gəlirəm Ana Torpaq,
Çox döymüşdüm qapını, səhər-axşam taq-taraq,
Hər gəlirəm deyəndə, əlimdə vardı bayraq,
O qutsal əmanətin, ünvanına yetibdi…
Sancmışam Sancağımı, rahat gəlirəm indi…

Səhər-axşam deyərdim, bu canım sənə fəda,
Nə olur mənə olsun, təki sən görmə qada,
“Komandir yaxşı olsa, ordunu verməz bada”,
Komutanım öndədir, gül-çiçək düz yoluna…
Sıra ilə gəlirik, yer ver girək qoynuna…

Çox dilək diləmişdim, Bayraq olsun kəfənim,
Xəyalım gerçək olub, sevinməsin düşmənim,
Dualarım qəbuldu, ağlamasın sevənim,
Ana, sən də gözünün qorasını sıxma ha…
“Oğul düşmən çəpəri”, qurban gedər torpağa…

*12.04.2016. Bakı.*

## VƏTƏN OĞLU

*(Aprel şəhidlərinin ili günü Bakıda bərk yağış yağdı…)*

Göylər də hönkürüb, ağladı bu gün,
Buludlar göz yaşın saxlaya bilmir...
Damından göz yaşı axıdan koma,
Kövrəlmiş ananı ovuda bilmir...

Hardasa, bir bala ata gözləyir,
Əlində bir Bayraq gələydi bu gün...

Müəllim istəyib stol üstünə,
Anası alaram, söyləyir hər gün...

Bir Ata istəyir oğlu bu gün də,
Həyətə tələsik girsin nə olar...
Arxaya baxmadan sürüb maşını,
Bütün gül-çiçəyi əzsin nə olar...
Elə bilirsən ki, bitər siyahı?
Dolabda islanıb bir cib dəsmalı...
Asılqan saxlamır çim su mundiri,
Havadan asılıb, bir ər sığalı...

Bir otaq küncündə bacı naləsi,
Birində qardaşın hıçqırtısı var...
Məhəllə uşağı, qrup yoldaşı,
Bu gün qəmgin durub meyvə satanlar...

Adi çörəkçi də xiffət eyləyir,
Çəkməçi çəkməsin görüb ağlayır...
Alışqan verdiyi bardakı qızın,
Bu yağış qəlbində tonqal qalayır...

Körpə uşaqlar da haçandı qəmgin,
Boylanır həyətə, ancaq görməyir...
Ana paltar ipin kəsibdi çoxdan,
Fəxrlə sərdiyin, daha sərməyir...

Göylər yas saxlayır, Yer qəribsəyib,
Təşnədir mərdlərin yeni nəşinə...
Torpaq əkənindir, əkən də bizik,
Göylərdə gəzənin Yer nə işinə...

Göylər bizə qahmar, Yer bizə mənzil,
Qəlbin dolanmasın, ey Vətən oğlu...
Nəsimi, Bəhmənyar gör nə vaxt olub?
Vətən də unutmur haqq tapan oğlu...

*02.04.2017. Bakı*

## "DÜNYA BİR PƏNCƏRƏDİR..."

*(Fərid Əhmədovun əziz xatirəsinə ithaf olunur...)*

"Dünya bir pəncərədir", pəncərən olsa, qardaş...
De, heç vaxtın oldumu, pəncərədən baxmağa,
Bir-iki, tələm-seyrək, boylanmağı saymasaq...
Yuxunu görmək üçün vaxt lazımdı yatmağa,
O da, Sən də yox idi, işin-gücün çox idi...
Çoxunun gözü ackən, Sənin gözün tox idi...

Yuxusuz gözündəki bu hüzn nədi, qardaş???
Yeddi ürək lazımdı, baxışına baxmağa,
Qəlb adlı əzamızı, qan vurmağı saymasaq...
Bizdə ürək nə gəzir, gözümüz yox baxmağa,
O ürək Səndə idi, baxışların ox idi...
Çoxunun haqqı yoxkən, Sənin haqqın çox idi...

"Nə yatdın ki, nə yuxu", görəsən, əziz qardaş....
Yaradan yaratmışdı, Səni oyaq qalmağa,
Ayaqüstü, sırada, göz qırpmağı saymasaq...
Yaranmışdın süzməyə, yaranmışdın dalmağa,
Düşüncə, dərin ümman, zehin, iti ox idi...
Çoxunda beş-beş olan, Səndə biri yox idi....

Damarda coşdu qanın, ürək dözmədi, qardaş...
Dizindəki təpərin bəs eylədi qalxmağa,
Dostlarının toyunda oynamağı saymasaq,
Toy-düyün də görmədin, oturmağa-qalxmağa,
Ərgənlənmiş ər idin, bəy otağın yox idi...
Çoxu sayın bilmirdi, Sənin biri yox idi...

İgid oğlu, ər idin, bilənlər bilir, qardaş...
Sənin etdiklərini ehtiyac yox saymağa,
Arada qəmli-qəmli bu baxmağı samasaq,
Eyibin də yox idi, barmaq ilə saymağa,
Yan-yörədə bildiyin, nacis, naqis çox idi...
Bilən bilir qardaşım, Sənin mislin yox idi....

*21.01.2018. Bakı.*

## DÜŞÜNÜRƏM...

Soy, o soydur, kök, o kökdür, qan, o qan...
Lap, bir-iki bicbalanı qat gözə.
Boy, o boydur, qol, o qoldur, can, o can...
Təkəm-seyrək, kəm-kəsiri sat sözə.
Sual doğur, onda nədir çatmayan?
Cavab budur: - “Atillanın öfkəsi”!
Bizdə çatmır, dədələrin hikkəsi!

Çay, o çaydır, göl, o göldür, dan, o dan...
Ufaq-təfək olmayanı keç bizə.
Toy, o toydur, çöl o çöldür, xan, o xan...
Biraz böyük, biraz kiçik, keç sözə.
Qürub da o, onda nədir çatmayan?
Cavab sadə: - “Çingiz xanın öfkəsi”!
Bizdə çatmır, dədələrin hikkəsi!

Hay, o haydır, rum, o rumdur, biz, o biz...
Tərliyinə yapışanı ver yelə.
Say, o saydır, qom, o qomdur, diz, o diz...
Tutuşanda aşmayanı ver belə.
Bəs beləsə, onda nədir çatmayan?
Cavab təkdir: - “Sultan Fateh öfkəsi”!
Bizdə çatmır, dədələrin hikkəsi!

Rey, o Reydir, Şam, o Şamdır, yol, o yol...
İnsan həmin, adamlar o, düş düzə.
Köy, o köydür, kənd, o kənddir, el, o el...
Əsl qədim, tarix zəngin, xoş bizə?
Haqlı sual, onda nədir çatmayan?
Cavab birdir: - “Xətainin öfkəsi”!
Bizdə çatmır, dədələrin hikkəsi!

Mey, o meydir, cam, o camdır, din, o din...
Əyri-müyrü düzəlişi yaz düzə.
Pay, o paydır, yem, o yemdir, hin, o hin...
Zaval gəlməz doğru sözə, yaz düzə...
Fəqət sual, onda nədir çatmayan?
Cavab yekdir: - “Şah Qacarın öfkəsi”!
Bizdə çatmır, dədələrin hikkəsi!

Ley, o leydir, sar, o sardır, vağ, o vağ...
Yarasanı mixi xətlə yaz mizə.
Huy, o huydur, gül, o güldür, bağ, o bağ...
Dəmi boş ver, onu kəsir yaz bizə.
Sual həmin, onda nədir çatmayan?
Cavab netdir: - “Atatürkün öfkəsi”!
Bizdə çatmır, dədələrin hikkəsi!

*15.03.2018. Bakı.*

## ŞƏHİD HAQQI

*(Mübarizlərin ruhu qarşısında borcluyuq…)*

Hər bir gedən şəhidin haqqı var boynumuzda,
Onlara borclu olan bir can var qoynumuzda,
Gərəkdir, sırğa ola; qulaqda, eynmizdə,
Əgər biz unutsaq da, dövran bunu unutmaz…
Bu yara hey su verər, zaman onu qurutmaz…

Bu bizim şakərimiz, həp şikarı unutmaq,
Boş-boş təsəllilərlə ruhumuzu ovutmaq,
Cismimiz oyansa da, layla deyib uyutmaq,
Bir gün biz istəsək də, dövran bizi oyatmaz…
Biz yatmaq istədikdə, zaman bizi uyutmaz…

Bir əsgər kəmərinin toqqasıcan yoxuq biz,
İllərdi ki, gözləyir; neçə qışdı, neçə yaz,
Deyir: – "Gəl bu şəhidə bir quruca məzar qaz",
Bu qədər bivec ata, yada ki, qardaş olmaz…
Vallah, atam-qardaşım bundan vacib iş olmaz…

Hər şeyi yükləmişik, Lazım bəyin belinə,
Zalım oğlu zalım da qüvvət verib dilinə,
Heç kimsə razı olmaz, bir quş səkə gülünə,
Bəs bu dağlarda yatan gül balalar kimindi?!
Ay – ulduzlu toqqalar, qumqumalar kimindi?!

Dəstəklərə yazılı, neçə-neçə adımız,
Qundaqlara qazılı, sezilməyən ay-ulduz,
Nişan durub, gözləyir; birdən düşər yolumuz,
Gəlin, o nişanların gözün yolda qoymayaq…
Bu işi, bu gün görək, sabaha saxlamayaq…

Bu işin bir yolu var, göstəribdi Mübariz!
Torpaq bizim Vətənsə, düşməlidi izimiz.
Bəsdir bəhanə etdik, bağlanıbdı yol-iriz.
Örnəkdən, ibrət alıb, cümləmiz coşmalıyıq!!!
Tikanlı məftilləri bu gün biz aşmalıyıq!!!

Dəli bilirlər bizi, doğruldaq adımızı,
Dost özün göstərəcək, tanıyaq yadımızı,
İllərdir su vermişik, püskürək odumuzu,
Belə yaşamaq olmaz, bilməliyik hamımız!!!
Mübariz gedən yolu, getməliyik hamımız!!!

*03.08.2019 – 19.06.2020. Bakı.*

## **TORPAQ BİZİ GÖZLƏYİR…**

*(Milli Qəhrəman İlqar Mirzəyevin xatirəsinə)*

Gəlmişəm görüşə yenə də, qardaş!
Ayaqlar olmadı sonadək yoldaş…
Qollarım qoynumda qurudu bardaş…
Yadıma xırdaca günahım düşdü…
Yanında boş yerə tamahım düşdü…

Gəlmişəm görüşə yenə də, qardaş!
Ayaqlar olmadı sonadək yoldaş…
Qollarım qoynumda qurudu bardaş…
“Hazırdır məzarlar”, – eyindən keçir…
Yanına gələn yol çiyindən keçir…

Gəlmişəm görüşə yenə də, qardaş!
Ayaqlar olmadı sonadək yoldaş…
Qollarım qoynumda qurudu bardaş…

Bu süslü "otaqlar" xiffət eyləyir…
"Daş yastıq yataqlar" minnət eyləyir…

Gəlmişəm görüşə yenə də, qardaş!
Ayaqlar olmadı sonadək yoldaş…
Qollarım qoynumda qurudu bardaş…
Səngər, məzar ortaq bizi gözləyir…
Qardaş, Ana torpaq bizi gözləyir…

*23.08.2020. – Bakı. (II F.X.)*

## USTACAM

Müzəffər ordunun şanlı əsgəri,
Ərənlər yurdunun ər övladıyam!
Zalımın zülmünə təhəmmülüm yox,
Babəklər yurdunun hürr övladıyam!

Ustadım Nəsimi, sözümüz sözdü,
Ədalət, həqiqət bağrımda közdü,
Ziyadar dühası bir deyil, yüzdü,
Mövlalar yurdunun nur övladıyam!

Dərvişəm, müqqəddəs sayılır təkkəm,
Hülqumdan yuxarı dayanır öfkəm,
Od, ocaq diyarı tanınır ölkəm,
Alovlar yurdunun nar övladıyam!

Unutma, şah babam Xətai başdı,
Nadir şah, mətədə tərpənməz daşdı,
İlham, nə keçilməz sədləri aşdı,
İgidlər yurdunun nər övladıyam!

Tarixdə Nəbisi, Koroğlusu var,
Gen dünya yağıya daim olub dar,
Düşmən qarşımızda yenə oldu xar,
Aslanlar yurdunun şir övladıyam!

Göydən Yer üzünə ərmağan, payam,
Gündüzlər Günəşəm, gecələr Ayam,
Ən parlaq ulduzdan törəyən boyam,
Ozanlar yurdunun sirr övladıyam!

Ustacam, vətənim vətən içində,
Axıb duruluruq zaman köçündə,
Min bir anlamı var, adi "heç"in də,
Aqillər yurdunun pir övladıyam!

*13.11.2020. Bakı.*

**CAN AY ANA…**

*(Milli Qəhrəman Polad Həşimovun anasına)*

Can ay Ana, bu baxışda nələr var…
Bu baxışda, Poladının ilk dişi,
İlk addımı, gülüşü var, yeriş var…
Bu baxışdan asılıbdı murazlar…
Bu baxışda Poladının ilk beşi,
Gülərüzü, şux qaməti, duruş var…

Can ay Ana, bu baxışda nələr yox?!
Bu baxışda yoxa çıxıb diləklər,
Bu baxışda zaman da yox, məkan da…
Bu baxışda itib bütün mizanlar…

Bu baxışda dünya çöküb iməklər,
Bu baxışda yelkən də yox, sükan da…

Can ay Ana, bu baxışda nələr var…
Bu baxışda Poladın ilk rütbəsi,
Bu baxışda şərəf də var, şan da var…
Bu baxışda fəğan edir arzular,
Bu baxışda min vaizin xütbəsi…
Al don geymiş qürub da var, dan da var…

Can ay Ana, bu baxışda nələr yox?!
Bu baxışda qədər namı ağlayır,
Bu baxışda Polad adlı oğul yox…
Bu baxışda tükənibdi niyazlar…
Bu baxışda kədər qəmi dağlayır,
Mum tək yumşaq, polad kimi oğul yox….

Can ay Ana, bu baxışda nələr var…
Bu baxışda Poladının mərdliyi,
Ərənliyi, cəsurluğu, qürur var…
Baxışının hərarəti dondurar…
Bu baxışda fəxarətin sərtliyi,
Ağalığı, amirliyi, onur var…

Can ay Ana, bu baxışda nələr yox?!
Bu baxışda susub qapı zəngləri,
"Polad gəldi", dur ayağa deyən yox…
Bu baxışda od qalayır xəyallar…
Bu baxışda itib dünya rəngləri,
"Ana" – deyə, şirin-şirin gülən yox…

Can ay Ana, bu baxışda nələr var…
Bu baxışda xanım, xatın bir Ana,

Sinəsində bağrı çat-çat olan var…
Bu baxışdan neçə Ana boylanar…
Bu baxışda Nüşabə tək şir Ana,
Tomris kimi kükrəyən var, yanan var…

*12.01.2021. Bakı.*

**MÜQƏDDƏSLƏR**

*(... bütün məzarsız Vətən övladlarına ithaf olunur...)*

Səngəri məzarı olan qardaşım,
Hələ də bilinmir əhvalın sənin...
Dəfndən Məada Bərzəx deyirlər,
Məchuldur durumun, məqamın sənin...

Silahın pas tutub, daha heç atmaz,
Dəbilqən gəzsə də, çəkmən köç etməz,
Kəmər yox olsa da, toqqan heç itməz,
Qumquman olubdu kimliyin sənin...

Üç rəngli bayrağım süsləyən dağlar,
Hər zirvə minlərlə şəhidi ağlar,
Bənövşə çiçəyi qəlbimi dağlar,
Dağların ağ qarı kəfənin sənin...

Zaur buz bulaqdan içəmməz daha,
Bənövşə müqəddəs, dərəmməz daha,
Ağ qarı tapdayıb, gəzəmməz daha,
Bu yurdun nəyi var, ünvanın sənin...

*09.05.2021. Bakı.*

## O GÜN

*(Milli Qəhrəman İlqar Mirzəyevin xatirəsinə)*

Hər şey belə başladı,
Gülə-gülə getmişdin...
Döndün üzdə təbəssüm,
Çöhrənə həkk etmişdin...

Tək getmişdin gedəndə,
Yüz min olub qayıtdın...
Özün getdin yuxuya,
Milyonları oyatdın...

Hər şey belə başladı,
Bütün xalq həmdəm oldu...
Cümlə aləm toplandı,
Azərbaycan cəm oldu...

Yuxudaykən əbədi,
Yatmışlara qalx dedin...
Vətənin qara dərdin
Al boyayıb, ağ etdin...

Girib torpaq altına,
Çıxartdın üzə nə var...
Bir gedişə mat idi,
Taxtada tüm fiqurlar...

Tarixində satrançın
Bəlkə də bu oldu ilk...
Qarşısında bir topun,
Vəzir olmuşdu fillik...

Hər şey belə başladı,
Qonaqların sığmadı
O gün həyət-bacana,
Məmləkəti çuğladı...

Başlanan yol qapından,
Şuşayadək uzandı...
Vətən oğlun itirdi,
Torpağını qazandı...

Belə şanlı hekayət,
Tarixdə bir, ya iki...
Lap başqası varsa da,
Möcüzədir bizimki ...

Bu dastanı qanıyla
Yazdı ərlər, ərənlər...
Bu kitabın qədrini,
Bilir yazmaq bilənlər...

*14.07.2021. Bakı.*

**QARDAŞ**

*(İlqar Mirzəyevin əziz xatirəsinə)*

Sən gəzən yerlərə gəlmişəm, Qardaş!
Qanın axan yerdə lalə bağrı qan.
İlk sübh şəfəqində çatmışam bura,
Rəngindən rənginə qatıb oğru dan.

Lənət o günə ki, açıldı səhər,
Namərdin dişinin dibində zəhər,
Dilində boğazdan yuxarı qəhər,
O müdhiş yalanı dedi doğrudan…

İndi bu kol-kosun nə günahı var?
Çəlləyə çiv olan palıd günahkar!
Ətrafda dağ-daş da ağlayır zar-zar…
Bülbüllər dilini udub qorxudan…

Nə yaxşı bu “tale”, “qismət” sözü var,
Sığınıb onlara olduq gözü dar,
Lap bilmək istəsən düzü ay İlqar,
Hamının yaradır qəlbi ağrıdan…

Ustaca təsəlli oğlunla qızın,
Biləsən, itməyib çörəyin, duzun,
Haçansa yenə də doğsa ulduzun,
Hilalı boylanır hər gün Ağrıdan…

*07.07.2022. Azərbaycan.*

**Müəllif: Zaur USTAC**

**WWW.KİTABEVİM.AZ**

**>>>SATIŞDA OLAN KİTABLAR**

**Yadigar Təvəkgül – “Xatirə yağışı”**

**Rəfail Tağızadə: Su üzərində bahar**

**Rəfail Tağızadə – “Qarabağ rüzgarları” kitabı**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**ÖZ YERİMİ BİLİRƏM**

Evdə sakit bir adam,
Çöldə deyib gülənəm.
Çətində, darda, qadam,
Öz yerimi bilənəm.
* * *
Çiynimə düşən yükü
Vallah dərd bilməmişəm.
Canım sağ olsun, təki,
Dartacam, ölməmişəm.
* * *
Kim deyir ki, kasıbam,
Yaxud bəyəm, ya xanam.
Nə özümdən razı adam,
Nə özümü dartanam.
* * *

Sakit, Allah bəndəsi,
Var - dövlətdə gözüm yox!
Zəmanənin rəndəsi,
Elə yonub, sözüm yox!
* * *
Bu ömrü ki, yaşadım,
Məni ruhdan salmadı.
Şükür olsun ki, adım,
Kimsəyə yük olmadı.

**OLUR**
Saf kəlam sat, alanı yox,
Yüz yalan sat, alan olur.
Bu bazarın yalanı çox,
Yalan satan kalan olur.
* * *
Öz dərdini yaxşı tanı,
Sevincini bölən hanı?!
Küncə sıxır dərd insanı,
Bir çıxılmaz dalan olur.
* * *
Sağlığını vermə bada,
Tez alışar, yanar o da.
Bu savaşda, bu qovğada,
Gödək ömrün talan olur.
* * *
Yaş artdıqca yox endirən,
Nə soruşan, nə dindirən.
Onda səni sevindirən,
Öyündüyün balan olur.
* * *
Məni dinlə, düşünmə dar,
Fəhimli ol, çox sey apar!
Qurda - quşa yem olanlar,
Köçdən geri qalan olur.

* * *
Köhnə palan içi eşmə!
Səbirli ol, odda bişmə!
Ay Murad, çox dərdə düşmə,
Qismətdəki olan olur.

**RUH VƏ CAN**
Ruh ölmürsə, nə sirdi,
Sonda bu canı satar.
O ki cana yesirdi,
Candan əziz kimi var?!
* * *
Candı ruhun beşiyi,
Ruhdu canın anası.
Yurdu, evi - eşiyi,
Ruhun odu sonası.
* * *
Elə bil ki, suçludu,
Nədi ki, canın dərdi?!
Ya ruh cana borcludu,
Ya da canda əsirdi.
* * *
Ruhdu var edən bizi,
Sual, müəmma, sirdi!
Ruhsuz can , sözün düzü,
Bir dəri, bir həsirdi.

**TAPANMIRAM**
Bir gün şad oluram, bir gün tərsinə,
Deyəsən zamanla dil tapanmıram.
İl ildən pis gəlir, dəyişmir heç nə,
Məni sevindirən il tapanmıram.
* * *
Dövran da, zaman da ömrə yağıdır,
Duyduğum nəğmələr, sanki ağıdır.

Od tutub yanıram, külək dağıdır,
Üstümü örtməyə kül tapanmıram.
* * *
Daha inanmıram şirin sözlərə,
Altı qat, yeddi qat saxta üzlərə.
Dönüb boylanıram baxan gözlərə,
Bir mənə uzanan əl tapanmıram.
* * *
Nə yalan deyim ki, başımdan aşıb,
Dərd mənə doy gəlib, qaynayıb, daşıb.
Ya zövqüm korlanıb, ya ağlım çaşıb,
Bağda iyləməyə gül tapanmıram.
* * *
Murad yaşa dolub, qəlbi yuxalıb,
Zamanın dərdini deyən çox alıb.
Yaxşımı azalıb, pismi çoxalıb,
Sırtımı verməyə bel tapanmıram.

**DÜNYA**
Yüz dərdi var bu dünyanın,
Kömək etməz çıxsa canın.
Zamanı var hər ünvanın,
Köç vaxtını bilər , dinməz.
* * *
Nə dost bilər, nə də sirdaş,
Son məkanın quru bir daş,
İzin , tozun qalmaz qardaş,
Bu həyatdan silər, dinməz.
* * *
Yetim payı yeyənlərə,
Tərəzini əyənlərə,
Dünya , mənim deyənlərə,
Sakit- sakit gülər, dinməz.
* * *

Batma yasa, düşmə dərdə,
Vaxt gələndə enər pərdə.
Sən sevinib gülən yerdə,
Aparmağa gələr, dinməz.
* * *
Adam kimi cudamların,
Özündən razı xamların,
Yekəxana adamların,
Başına kül ələr, dinməz.
* * *
Nə boşalar, nə də dolar,
Nə verdisə , geri alar,
Gah Muradı oda salar,
Gah bağrını dələr, dinməz.

**AY ÜRƏYİM**

Niyə mənlə dolanmırsan,
Bilənmirəm, ay ürəyim.
Nə vermisən alanmırsan,
Gülənmirəm, ay ürəyim.
* * *
Fikir hara, de, mən hara,
Sarsıyıram, düşsəm dara.
Fikirləşib bir qərara,
Gələnmirəm, ay ürəyim.
* * *
Məni üzən yalanları,
Məndən qisas alanları,
Yaddaşımdan olanları,
Silənmirəm, ay ürəyim.
* * *
Bir düzən ver gəlişinə,
Öyrəşdiyim əl işinə.
Əvvəlki tək gülüşünə,
Bələnmirəm, ay ürəyim.

* * *

Baş açmıram gileyindən,
Qaçanmıram kələyindən,
Xeyli vaxtdı ələyindən,
Ələnmirəm, ay ürəyim.

**YER - GÖY**

Nə qədər dərindi göylərin sirri,
Baxırsan ağlına min fikir gəlir.
Bu dünya bərqərar olandan bəri,
Göylər yer üzünün bağrını dəlir.
* * *
Gah yağış çiləyir, gah da qar tökür,
Nə desə Göy üzü Yer qulaq asır.
Deyəsən altında əziyyət çəkir,
Elə bil Göy Yerin başından basır.
* * *
Sanki bir çətirdi Yeri qoruyar,
Qoymaz ki, üzünə kölgələr düşə.
Sanmıram Yer üzü göylərdən doyar,
Əl açar göylərə insan həmişə.
* * *
Yerin də, Göyün də yaradanı var,
Bunu mən demədim, alimlər söylər.
Yerdəki bəndələr bir şeyi anlar,
O uca Tanrının məkanı göylər!

**BİR YOL GEDƏR İÇİMDƏN...**

Bir yol gedər içimdən,
Tərk olmuş çölə sarı.
Aralandım köçümdən,
Keçilməz gölə sarı.
* * *

Özümə dərd açaram,
Tələsərəm, qaçaram.
Yuxularda uçaram,
Uzanan ələ sarı.
* * *
Yaşadım, bir iz saldım,
Yaxşı, pis yadda qaldım.
Yarəb, deyən yol aldım,
Tufana, yelə sarı.
* * *
Sanki bir ömür yatdım,
Üz-gözümü qanatdım.
Bilmədim, əl uzatdım,
Tikanlı gülə sarı.
* * *
Daha fürsət güdəcəm,
Nə arzum var edəcəm,
Bahar oldu gedəcəm,
Şen olmuş elə sarı.

**GÖZ AÇANDA NƏ GÖRDÜK Kİ...**
Göz açanda nə gördük ki,
Dümağ işıqdan savayı?!
Bənna olduq, nə hördük ki,
Boş yaraşıqdan savayı?!
* * *
Ölməz sənət, ölməz əməl,
Düz qoyulsa özül, təməl.
Oyun qurduq, nə gördü əl,
Sümük aşıqdan savayı?!
* * *
Bəzən niyə çox fağırıq,
Gah yüngülük, gah ağırıq,
Zövqümüz bu, nə yığırıq,
Zərli qaşıqdan savayı?!

* * *
Kimdi bizi dərdə salan?!
Dərdimizi neydə çalan?!
Candan təmiz ruhdu qalan,
Çirk, bulaşıqdan savayı.

**BU , DÜNYANIN SONU DEYİL**
Bu dünyadan köçüb getmək,
Yoxa çıxmaq, gözdən itmək,
Daşa dönüb yerdə bitmək,
Bu, dünyanın sonu deyil!
* * *
Qismət varsa doğulacaq,
Üzdə kədər boğulacaq,
Dərd- azar da soğulacaq,
Bu, dünyanın sonu deyil!
* * *
Xeyir apar, şadlıq gətir,
Yaxşıya bax, ibrət götür,
Çalış hər gün sevinc ötür,
Bu dünyanın sonu deyil!
* * *
Bildiyini doğru söylə,
Gedən ömrü yoldan əylə,
Nə fikirləş, nə dərd eylə,
Bu, dünyanın sonu deyil!
* * *
Səndən sonra gələn yoxsa,
Bir üzünə gülən yoxsa,
Dünya varsa, ölən yoxsa,
Bax, dünyanın sonu budur!

**ÖLÜM**
Ölüm - varlığın sonu,
Gedən yolun başıdı.

Kim sevər ki, de onu,
O, dünyanın yaşıdı!
* * *
Varlı, kasıb seçməz o,
Cavan, qoca da bilməz.
Məsləyindən keçməz o,
Dala durmaz, əyilməz.
* * *
Yaxşını, pisi görməz,
Bir bənd ola, ya sevə.
Fürsəti boşa verməz,
Dam uçurar bu dəvə.
* * *
Qəfil gecə gələr o,
Ya da gündüz soraqlar.
Ünvanını bilər o,
Vaxt itirməz, tez haqlar.
* * *
Yaxşı-yaman soruşmaz,
Vaxtını almaz hədər.
Qorxma, həddini aşmaz,
İş görər, çıxıb gedər.
* * *
Ən sonuncu baxışdı,
Ən sonuncu əlvida.
Bu dünyaya naxışdı,
Ömrə, günə son vida.

**İNSAN MƏLƏK DEYİL**

Özümün özümlə davam çox olar,
Hesabat verərəm özüm özümə.
Etdiyim səhvlərim isti ox olar,
Sanki yaydan çıxar, girər gözümə.
* * *

Hərdən qınayaram özüm özümü,
Nə olsun, bu işin bir sonu olmaz.
O qədər yemişəm mən öz sözümü,
Heç sayı hesabı yadımda qalmaz.
* * *
İnsan mələk deyil, ona inanıb,
Hər gün ətəyində namaz qılasan.
Mən də inanmışam, ağzım çox yanıb,
Susmuşam. Heyfini kimdən alasan?!
* * *
Bu dünya özünə güvəni sevməz,
Sarsıdar həyatda, ad-sanı sevər.
Qismət də başıboş dəvəni sevməz,
Ağıllı, tədbirli insanı sevər.
* * *
Fikirləş, həyatda çalış aldanma,
Aldanmaq insanı hörmətdən salır.
Qoru ad-sanını, heç zaman danma,
Anla ki, insandan tək ad-san qalır.

**SEVGİ NƏDİR**

Sevgi nədir? Gözün gözə səcdəsi?
İlk görüşdə təmas quran əl bilər.
Bəs eşq nədir? Üzün üzə səcdəsi?
Söz deyəndə topuq vuran dil bilər.
* * *
İki gözün işartısı yol açar,
İki qəlbə inam verər, dindirər.
Eşq dediyin sevənlərə qol açar,
Qabağında diz çökdürər, endirər.
* * *
Nə görünər, nə bilinər canda eşq,
Nə ruhundan, nə ağlından çıxar o.
Ruhda olar, hey çağlayar qanda eşq,
Gecə-gündüz yandırar o, yaxar o.

* * *
İki canın eşidilməz səsidi,
Sən duysan da, bundan gözün tox olmaz.
Ən çox işlənən söz can kəlməsidi,
Dillərindən əksik olmaz, yox olmaz.
* * *
O, bir hissdi, əsir eylər insanı,
Qul olarsan qabağında o hissin.
Kim ayırsa, iki sevən bir canı,
Görüm Tanrı onun xeyrini kəssin!

**QOŞMA**
Çoxdan sınamışam, əvvəl bilinməz,
İpəyəm, qumaşam, çitəm, ya bezəm.
Mənimlə təmas qur, bir söhbət eylə,
Gör ki, aydınlığa şığıyan gözəm.
* * *
Alnıma yazılan yazımı, nəsə,
Niyə görünmüşəm bəsit hər kəsə?!
İzah eləməsəm, inan, deməsəm,
Çeynənmiş fikirəm, yeyilmiş sözəm.
* * *
Kənardan görünməz, hər an oyağam,
Bəzən sakit, səssiz, həlim sayağam.
Xislətim belədi , haqqa dayağam,
Üzləri yandıran alovam, közəm.
* * *
Nə gördüm dünyaya güzardan sonra,
Bizləri ələyən bazardan sonra?!
Yüz cür həngamədən, azardan sonra,
Bilinər, ay Murad, əyriyəm, düzəm.

***Müəllif:* *Murad MƏMMƏDOV***

**MURAD MƏMMƏDOVUN YAZILARI**



**XATİRƏLƏR**

Nahaq yerə tutdum dilə,
Geri dönməz ta vaxt-vədə.
Zülmətdə qərq olan anlar
Ya qorxuymuş, ya hədə.

Hər gizli işin öz səmti,
Elə dərdin də tamı var.
Sevincin qəfildən gələn

Zülmət donlu axşamı var...
Bir quş kimi uçub getdi,

Səsim çatmaz ötən günə.
Uzalı qalıbdı əlim,
İmdadıma çatan günə.

Mən lal-dinməz dayanmışam,
Anlardı salan hay-həşir.
Xatirələr hürkən kimi
Sürüşüb ovcuma düşür.
*01.01.2024*

**DÜNYA SEVİLMƏYƏ LAYİQ DEYİLMİŞ**

Aldandıq dilinə hər addımbaşı,
Getməti bir kəslə heç vaxt yanaşı.
Əzəli toy-büsat, sonu göz yaşı,
Dünya sevilməyə layiq deyilmiş!

Məzlumu tapdayıb saldı urvatdan,
Zalıma yol açdı “yeddinci qat”dan.
Bolluca vəd verdi... çıxartdı yaddan,
Dünya sevilməyə layiq deyilmiş!

Saldı aralığa ayrı-seçkilik,
Nə elm başa keçdi, nə savad, bilik...
“Şahlıq qapısı”nda söz  cilik-cilik,
Dünya sevilməyə layiq deyilmiş!

Pərsəngə züy tutdu mizan-tərəzi,
Şeytandan törətdi kini, qərəzi.
Cəng imiş, savaşmış qorxunc mərəzi,
Dünya sevilməyə layiq deyilmiş!

Yalanı dillərdə "albayraq" etdi,
Məddahı həm sütun, həm dayaq etdi.
Düz sözü fırladıb baş-ayaq etdi,
Dünya sevilməyə layiq deyilmiş!

*24.07.2023*

**GECƏLƏR NƏ YAMAN UZUN OLURMUŞ...**

Haqdan soraq verə bilməz hər dinən,
Yamanlığın arası yox mərdinən...
Üz-üzə qalanda adam dərdinən -
Gecələr nə yaman uzun olurmuş!

Yer-göy silkələnsə, daşa güc düşür,
Qurudan haray yox, yaşa güc düşür.
Yuxu qeyb olanda, başa güc düşür -
Gecələr nə yaman uzun olurmuş!

Bəxt lal-dinməz, dünya zalım, tale kür,
İnsan göydən daş yağdırır, od tökür.
Hamı kölgəsindən perikib hürkür -
Gecələr nə yaman uzun olurmuş!

Əkiz doğulubdur şər ilə xeyir,
Qovrulan ürəyin külüdür şeir.
Tənhalıq sızlaya-sızlaya deyir -
Gecələr nə yaman uzun olurmuş!

Əbədi zülmətə çevrilir günah,
Sübhədək titrədir qəlbi nalə-ah.
Ümid tükənəndə, açılmlr sabah,
Gecələr nə yaman uzun olurmuş!
*28.07.2023*

**GÖZÜMÜ DİKMİŞƏM OYAQ ŞƏKLİNƏ**
Sönmüş bir ocaqda sızlayan küləm,
Məni səslədinmi  yanına gələm?
Qarşımda ağ vərəq, əlimdə qələm,
Baxırdım elə hey bayaq şəklinə.

Alıb-aldatmağı etmədim peşə,
Qamaşdıra bilməz gözümü şüşə.
Qoymadım könlümdən sürüşüb düşə,
Oldum kipriyimlə dayaq, şəklinə.

Dilim gəlməz deyəm bir vaxtlar heçdin,
Təkcə harayasa tələsən köçdün...
Yuxumda təzədən qarşımdan keçdim,

Açdım hər sirrimi oyaq şəklinə.

Uymadım hər gələn səsə-sorağa.
“Cızıqdan” çıxmadım heç vaxt qırağa...
Dost üzə baxırsa, düşmən ayağa,
Mən necə göz dikim ayaq şəklinə?!
04.08.2023

**HƏLƏ SEVƏNLƏRİM VARMIŞ HEÇ DEMƏ ...**

Məni qınamasın bəxti yeyinlər,
Öz alın yazımdan qaça bilmədim.
Qarşımda sədd imiş gizli düyünlər,
Cəhd etdim... heç birin aça bilmədim.

Yuxudan oyandım qızaranda dan,
Atlı qarışqatək yükümü dartdım.
Özgə kölgəsində daldalanmadan
Sözlə damla-damla çoxalıb artdım.

Qoymadım başımı rahat balınca,
Ehtiyac üstümə yağdı qar kimi.
Öz nakam eşqimin baxdım dalınca,
Süddən yanıq qalmış uşaqlar kimi...

Bir ömür yaşadım sevincli-qəmli,
Nə boynumu bükdüm, nə qamətimi.
Hərdən görünsəm də kipriyi nəmli,
Yersiz "xərcləmədim" dəyanətimi.

Bir himə bəndəm ki kükrəyib daşam,
Məni bənzətməyin ağıldan kəmə.
Elə bilirdim ki unudulmuşam,
Hələ sevənlərim varmış heç demə...
14.08.2023

**GƏLMİŞƏM**

Bir qalam kösövəm-odam,
Bükülmüş qolam-qanadam.
Çoxlarına hələ yadam,
Bir az uzaqdan gəlmişəm.

Tapdansam da torpaq kimi,
Dözdüm hər dərdə dağ kimi...
Yaşıl üzlü yarpaq kimi
Kökdən-budaqdan gəlmişəm.

Kürün avazı-səsiyəm,
Xan Arazın bəstəsiyəm.

“Qarabağ şikəstəsi”yəm,
Dildən-dodaqdan gəlmişəm.

Bələd olsam da “arxına”,
Qarışmamışam axına.
Əslim bəllidir çoxuna,
Halal torpaqdan gəlmişəm.

Alnım açıqdır, üzüm ağ,
Nə astaram, nə də yamaq...
Söz mülkünə min il qabaq,
Ya da bayaqdan gəlmişəm.

Sevincli-qəmli yuvayam,
Nə cəngəm, nə də davayam.
Bir udum suyam, havayam
Saflaşıb Haqdan gəlmişəm.
*22.08.2023*

## ZƏFƏRİN MÜBARƏK, VƏTƏN!

Xoş günlərdən soraq verir,
Axşamın-səhərin, Vətən!
Düşmənlərə göz dağıdır
Hər təzə Zəfərin, Vətən!

İgid-ərən oğulların
Tapdayıb bəndi-bərəni,
Bir həmləylə sevindirdi
Xocalını, Əsgəranı,
Xocavəndi, Ağdərəni...
"Dəmir Yumruq"dan güc aldı
Qatlanmaz qanadın-qolun!
Qırdın paslı qıfılını
Xankəndiyə gedən yolun!
Qarşında tab gətirmədi
Zülmə sipər olan "barı".
Diz çöküb, aman dilədi
Səndən harsın dığaları...
Başın sağolsun... yenə də
Haqq yolunda cəngə çıxıb,
Candan keçənlərin də var!
Qanlı şəhid köynəyiylə
Ulu Tanrı Dərgahına
Vaxtsız köçənlərin də var...
Qalibiyyət simvoludur
Üç rəngli bayrağın sənin!
Bütövləşən sərhədlərin
Sabahkı növrağın sənin!..
Türkün-türkə can borcu var,
Nə yalqızsan, nə tək, Vətən!

Hünərindən soraq verən
Zəfərin Mübarək, Vətən!
*21.09.2023*

**KAŞ, MƏNİM QARŞIMA HEÇ ÇIXMAYAYDIN...**
*(Uzun illərdən sonra təzədən qarşıma çıxan bir xanıma)*
Dönük bəxtə əl açmağım əbəsdi,
Uğursuz bir sevgi boğulmuş səsdi...
Səni görən kimi ürəyim əsdi,
Kaş, mənim qarşıma heç çıxmayaydın!

Bəlkə baxışların qəfil tufanmış,
Ötəri istəyin ömrü bir anmış!
Deyim, deməyimmi, ay dili yanmış,
Kaş, mənim qarşıma heç çıxmayaydın!

Hara tələsirdin... bəs, niyə təkdin,
Dərə bilmədiyim güldün, çiçəkdin...
Səbrimi təzədən çarmıxa çəkdin,
Kaş, mənim qarşıma heç çıxmayaydın!

Yəqin mürgülüdür hələ qismətin,
Çöhrəndə iz salıb həyan, ismətin.
Səni ovundurmaq çətinmiş, çətin
Kaş, mənim qarşıma heç çıxmayaydın!

Nə şirin xəyalsan, nə röya-yuxu,
Daşa dəyibdimi eşqinin oxu?

De, niyə bu qədər gecikdin axı,
Kaş, mənim qarşıma heç çıxmayaydın!

Bilsən-bilməsən də istəyim laldı,
Hər anım cavabsız sorğu-sualdı.
Getdin... yenə könlüm yaralı qaldı,
Kaş, mənim qarşıma heç çıxmayaydın!
*06.03.2024*

**YAŞADIM**

Baxan kimi bəxt üzümə qıyqacı,
Bildim yoxdu tənhalığın əlacı.
Xatirələr həm şirinmiş, həm acı,
Hərdən dönüb ötən anda yaşadım.

Qoşa gördüm bəzən sevinclə qəmi,
Həzm elədim həm artığı, həm kəmi.
Haqlı-haqsız daşladılar kölgəmi,
Zülmət donlu bir ünvanda yaşadım.

Bələd oldum sərt üzünə möhnətin,
Halallıqla baş girləmək çox çətin...
Arxasınca sürünmədim şöhrətin,
Təkcə təmiz adda-sanda yaşadım.

Avazımdı vərəqlərdə əkdiyim,
İlk eşqimmiş göz yaşıma bükdüyüm.
Misra-misra şəkilini çəkdiyim
Ay-ulduzlu asimanda yaşadım.

**HALIYAM**

Yüyəninə əl atsam da hər anın,
Nə ürəyin səsin duydum, nə qanın.
Necə deyim qana həris dünyanın,
Hər səmtindən, hər izindən halıyam?

Əllərimdən çıxdı əli ömrümün,
Cavanlıqmış demə, seli ömrümün...
Qürub yönlü səksəkəli ömrümün,
Qar-sazaqlı gündüzündən halıyam.

Halallıqdı söz mülkündən dərdiyim,
Qismətimmiş bir vaxt əldən verdiyim...
Düz otuz il qəriblikdə gördüyüm
Cəhənnəmin hər üzündən halıyam!..

*27.03.2024*

***Mingəçevir şəhəri***

**Müəllif: İSMAYIL MƏRCANLI İMANZADƏ**

KİTABEVİM.AZ
kitab marketi
www.KITABEVIM.AZ



**HƏSƏN MÜƏLLİMİN SƏHİFƏSİ**

## QƏDİM SÖZLƏRİMİZİN (PROTOTÜRK) ETİMOLOJİ İZAHLARI.

**(*“DAŞ” SÖZÜNÜN DERİVATİVLƏRİ*)**

(*Məqaləni şəxsən tanımasam da dilçi alim Firudin Ağasıoğluna (Cəlilov) ithaf edirəm).*

Hər bir insan özünüdərk yəni kamilləşən vaxt daxilində, ətrafında baş verən hadisələri öyrənməyə çalışır.Maraq etdiyi hər bir şeyi öyrənmək üçün suallar verir.Müəyyən yaşa çatdıqdan sonra başqasından yox, özü özündən soruşur.Bu sualların biri də “dilimizdə olan sözlər necə yaranmışdır sualıdır”.Bu sual onu ömrü boyu izləyir.

Əslində bu sual dilçilik elmininin özündə də eyni mahiyyəti daşıyır.Hətta spesifik dilçilər tərəfindən aparılan akademik araşdırmalar da bu sahəni dərindən öyrənə bilməmişdir.

Görəsən dilçilik elmində (tək bizdə deyil, bütün dünya dillərində) bu boşluğu yaradan səbəb nədir?

Dilçilik nəzəriyyəsi ilə məşğul olan alimlər protodillərin (qədim) etimologiyasının öyrənilməsinin əsas şərtləri: qədim yazılı mənbələri, folkloru, mifologiyanı əsas götürürlər.Sözlərin

rekostruksiyasında səs əvəzlənməsi, səs keçidi, səs düşümü, səs əlavələri və s.məsələlərin böyük rol oynadığını göstərirlər.Lakin sözlərin praforması (ilkin) bərpa olunsa belə, onun mənşəyini, mənanı daşıma səbəbi (semantikası) öyrənmək problem olaraq qalmaqdadır. F.Ağasıoğlunun (Cəlilovun) dediyi kimi bir sözü tapmaq üçün min cür müqayisəli təhlil aparmaq gərək olur.
Mən bəlkə də dilçilik elmini cəbr (əziyyət) elmi ilə eyni paralellikdə görürəm.Sözün kökünü tapmaq riyazi kökü tapmaq qədər əziyyətlidir.
Əski sözləri tapmaq üçün, gərək ən qədim insanın düşüncə tərzini öyrənib, həmin dərin qata düşməyi bacarmalısan.Onların bizə miras qoyduqları sözlərin necə yarandığını duyasan.Dilçilikdə, əsasən də qədim sözlərin öyrənilməsində sözduyumu əsas şərtlərdəndir.
Görəsən insanın yaranışı haqqında verilən rəqəmlərin hansı dəqiqdir?.Bəzən milyard, milyon, bəzən də minilliklər...Ən inandırıcı olmayan isə müasir dilçilərin insan nitqinə 5-10 min il yaş verməleridir.Bir tanınmış dilçi deyibsə belə məgər bunu mənbə saymaq olarmı?
Dilçi alimlərin qənaətinə görə ilkin sözlər yamsılama (təqlid, imitasiya) yolu ilə yaranmışdır.Məs: dilimizdə qu quşuna çıxardığı "qu" səsinə görə, ruslar "kukuşka", latınlar "cuculus" və s. kimi adlanmalar yaranmışdır.
Bu tədqiqata dair bir neçəsini öz araşdırdıqlarımdan deyim."Qarğa" sözü çıxardığı "qar" səsinə; "qurbağa"nın çıxardığı "qur" sözünə və s.Hətta təzə dil açan körpələrin ifadə etdikləri:mu(su), pəpə, məmə, dədə, nənə, bibi, qaqa və s. sözlərdə yamsılama prosesində yaranmışdır.
Hətta ən ilkin Amon Tanrısı da onun inancı olan inəyin çıxardığı "mo" səsindən yaranmışdır.Qədim Türklərin Qor Tanrısının adı da yeni doğulan uşağın çıxardığı "qa-ğıltlsından" yaranan nominativdir.Onlar insanın Tanrı tərəfindən yaranmasını dərk edirdilər.Və körpənin çıxardığı "qa" səsini tanrının adı kimi inanıb,

qəbul etmişlər.
Həqiqətən nə qədər çətin olsa da, Tanrıçılığı qəlbən sevərkən o dərin qat insan üçün açılır və həmin aləm vizual şəkildə təsəvvürə (bəlkə də təsəvvüfə) gəlir.Düşünürəm ki, sufilər də bunu arzulamışlar. Ancaq yolunu tapa bilməmişlər.
Tanrını dərk etmək üçün ən qədim insanın düşüncəsini dərk etmək gərəkdir.İnsan Tanrını necə dərk etmişdir?
Ta qədimdə onlar təbiətin dörd ünsürünün (su, yel, od, torpaq) onlara gətirdikləri fəlakətlərə görə onlara tapınmış, lakin faydasız olduğunu dərk edən ağıllı insanlar (homo sapiens ) onlardan güclü fövqəlbəşər qüvvəni-Tanrını tapmışlar( yəni- tapanak, tapınmaq).
İnsanlar tayfa, qəbilə şəklində yaşayarkən onlar insanda səs aparatının olduğunu dərk edərək, onun vasitəsi ilə çıxardıqları siqnal mahiyyətli səslərdən başqa, bu səslərdən danışıq siqnalları da yaratmağı düşünmüşlər.Ən qədim insanlar tanrılarının adından Tanriya məxsus sözlər yaratmışlar.Məs: Tanrı sözündən məntiqə uyğun tan, tən(təndir), dan(Günəş Tanrısının doğan vaxtı) və s;Qor Tanrısının adı ilə qor(od), qut; Gün Tanrısının adından gün,ün, ön, hun, xan və s.Daha çox tanrı adları və ona məxsus adlanmalar mövcuddur.
Qədim insanlar üçün Tanrı adları sanki əlifba səslərinin başlanğıcı olmuşdur.Tayfalar birləşdikcə onların da tanrı adlarından yeni səslər səs əlifbasının həcmini genişləndirirdi.Artıq bu səslərTanrı xüsusiyyətlərinə xidmətdən çıxıb, onları əhatə edən coğrafi mühiti, maddi əşyaları, məişət əşyalarını adlandırmaq üçün nitqin əsas bazasına çevrilmişdir.İnsanlar tək və yaxud toplu şəkildə adlanmalar (nominasiya) tətbiq etməyə başlaylrdılar.(Dədə Qorquddakı kimi.)

## ZƏHRA HƏŞİMOVANIN YAZILARI

Yüzlərlə dilçilərimiz Azərbaycanın coğrafiyasında yerləşən Kür və Araz çaylarının adlarını öyrənmək üçün saysız-hesabsız variantlar

vermişlər.Lakin onlar sözün rekonstruksiyasını tapsalar da, onun yaranma etimologiyasını tapa bilməmişdilər.Nə üçün bu çaya bu ad verilmiş, niyə başqa ad yox.Kür çayının adının digər çay adlarına Oka və s. oxşadıb tapsalar da etimologiyanın haradan doğulduğunu müəyyən etmək onlarda problem olaraq qalmışdır.
Ən Qədim Türklər (Bəzən "qədim" sözünə öz alimlərimiz də etinasız yanaşıb, onun mahiyyətini nümayiş etdirə bilmirlər.Yer üzərində yüzlərlə xalqlardan yalnız bir neçəsi bu adı daşıyır:Qədim Misirlilər, Qədim Romalılar və Qədim Oğuzlar vəssalam.) inanırdılar ki, mövcud olan hər bir şeyi Tanrı yaratmışdır.(Bu günki kimi.) Məhz Kür çayının adını onlar Ulu Tanrı Qa-nın adından Ulu dillə Kür, (Görkəml diçi alim Qəzənfər Kazımovun "Ulu dil tədqiqatı" əsasında) Araz çayınının adını isə "Ra" Günəş Tanrısının adından yaratmışlar.
Bu günki müasir insanın düşüncəsindən fərqli dil fəlsəfəsi, məntiqi, təxəyyülü, mülahizəsi, psixologiyası və s. əsasında.
Dilimizdə miras sözləri "söz muzeyinə" bənzətmək doğru olardı.Onlar türkün genezinin prototipləridir.Həqiqətən də bunlar hamısı hermitajdır (ermitage).
Qədim sözlərimizə fikir verək."Un" sözü.Qədim insanın təsəvvürünə görə un ruzisini yalnız tanrı yarada bilərdi.Gün Tanrısının verdiyi "un" ruzisi.Başqa dillərdə eyni paralellikdir.
İngilis dilində: "flour" sözü iki tanrı adından Firondan keçmə "fr-fl" və ur(kor), fars dilində "ard" – "ar"-"har"; monqol dilində "quril"-"qor" tanrısı, Rus dilində "muka" iki tarının adından "mo" və "ka"; yunanca "alevri" yenə də iki tanrı adından "al-hor-"h" səsdüşümü və r-l əvəzlənməsi, "vri" Firondan "fir-vir" və s.
Kim Fironizmə 5000 min il yaş verirsə onlar çox yanılırlar.Əgər bütün dünya dillərinə Fironizmdən keçən sözlərin izahlı sözlüyünü yaratsan 10 cildə sığmaz.Bu hələ mənim 6-7 dilə bələd olduğum statistikadandır.Fironizmi bilməyən dilçi heç bir vaxt öz dili daxil, heç bir dilin teolinqvistikasını, psixolinqvistikasını, semantikası və s.

dəyərincə tədqiq edə bilməz.Dillərdə ”Firon” sözü 100 şəkil almışdır...Marr onu axtarmağın izinə düşmüş, lakin tanrıçılığı bilmədiyi üçün bütün cəhdləri bu gün də əsassız kimi sayılır.
Özüm özümə təəssüf edirəm...
Keçək məqalənin əsas mövzusuna.
Dilimizdə olan “daş” türklərdə olan “taş” sözünə.Mən əgər bu məqalənin girişini bu qədər izahlı yazmasaydım, oxucu üçün bu fikirlər qaranlıq qala bilərdi.
Əvvəldə deyildiyi kimi Tanrı adı ilə yaranan hecalar artıq tanrıçılıqdan çıxıb, əhatədə olan nəsnələrin adlanmasına xidmət etmişdir.”Tan”- “Günəş Tanrısı”nın adndakı “da” və türklərə məxsus karlaşmış fonemlə “ta” yeni sözlərin yaranmasında köməkçi rolunu oynamışdır.
Qədim Türklər inanırdılar ki “daş”ı da tanrı yaratmışdır.Hətta türklərin “dağ” sözü də Tan Tanrının adındandır.Çünkü onlar Tanrını uca hesab edərək, dağları müqəddəsləşdirmişlər.”Dağ” sözü “da” hazır hecadan adını almışdır.Yerdə olan daş da dağın daşından olduğundan, yeni söz olan “da+ş” sözünü də bu mənbədən yaratmışlar.Onlar daşdan düzəldilmiş yaşadıqları primitiv evə də “dam” adını qoymuşlar.Evin içərisinin yerinə də “daş” sözündən yaranan, yəni daşın yedə olmasına nəzərən “döşəmə” adını vermişlər.Altlarının soyuq çəkməmələri üçün düzəltdirdikləri nəsnəyə də “döşək” (daşın üstünə qoyulan) adını vermişlər.Fars lüğətində “döşək” sözü eyni məna daşısa da, oğuzlardan keçmədir.

## ZƏHRA HƏŞİMOVANIN YAZILARI

”Diş” sözü də həmin semantikadandır.Daş kimi bərk.
”Dış, tış” sözləri də “çöl” yəni “daşlıq” mənasından yaranmadır.Türklərdə işlənən”taşra- uzaq əyalət” sözü də evdən uzaq, daşınılan yer kimi mənalanır.
Qədim Oğuzlarda “çul” daş deməkdir.Ola bilsin ki, “Dəşti”

muğamının “çölçülərə-köçərilərə) aid olduğundan bu nominasiya formalaşmışdır.Bu adlanma yəqin ki, oğuzların “Dış Oğuz” qoluna mənsbluğu bildirən semantikadandır.”Köçəri” sözünün özü də “daşınan-daş” yəni “Dış oğuz” la eyni semantik paralellikdədir. Farslarda da “dəşti” sözü “çöl” mənası verir(Türk dilindən alınmadır)
“Daşımaq-taşımaq” sözü də çox maraqlıdır.Bəzən deyirlər ki, “Elə bil daş daşımışam”.”Daşımaq, daşınmaq, daşlanmaq” sözlərinin içərisində bir psixolinqvistik anlam var.Yəni “daş kimi ağır yükü daşımaq” semantikasındandır.
“Düşmək” sözü.Bir şeyin yerə düşməsi.Yəni daşın üstünə düşməsi.Psixolinqvistikadır.
“Düşünmək” sözü.Çox vaxt fikri bildirmək üçün ona “düşünüb-daşınmaq” da deyirik.Semantik cəhətdən “daş kimi ağır olan bir fikri” bildirir.
”Deşmək” sözü. Diş ilə deşilən mənasından yaranmadır.(dişdəkləmək-İbtidai insan düşüncəsi.)
Türklərin “Dosdoğru” sözü – “tamamilə düz” yəni “daş kimi bərk”.
Türk dilində olan “döşekli” sözü möhkəm, sabit mənasını bildirir.
“Düşkü, düşkünlük” sözləri bizim ifadəmizdə “qəlbin qırılması” kimi başa düşülür.Yəni “düşkün” sözü “yerdəki daşa düşüb sınma” kimi psixolinqvistikdir.Axşam düştü, gözdən düşmək və s.
Ən maraqlısı çox vaxt lağ etdiyimiz adama dediyimiz “düşük” sözü.Türklər bu sözü “enmiş” mənasında işlədir.Biz isə rəngli formada yəni aşağılamaq mənasında işlədirik.
Dilimizdə işlənən “daşmaq” sözü “daş” sözünün omonimi olsa da, “daşmaq” sözü “aşmaq” sözündə “d” səsinin protezasıdır.Sadəcə olaraq “aşmaq-daşmaq” sözündən özünə yeni status qazanmışdır.”Daş” sözü ilə əlaqəsi yoxdur.
O ki qaldı “döş” sözünə, bu bir qədər fars dili ilə müştərəkdir.Əslində döş sözü fars dilində “büst” kimi mənalanır.Bu bizim şeirriyatımızda da gözəlləmələrdə də çox işlənmişdir.Fars dilində “duşəndə, duşidən” sağıcı, sağmaq kimi mənalanır.Buna

baxmayaraq “döş” sözünün ifadələrdə “döşü bərk” kimi işlənməsi insan əzasından olan döşün daş kimi bərk anlamına gəlməsi semantikanı türk dilinə yaxınlaşdırır.”Döş” sözünün sinonimləri olan “sinə, büst, qəlb” kimi sözlər də dilə gəlmə sözlərdir.”Dişləmək” sözü də uşağın döşdən süd əmməsi zamanı da işlənir.”Döş” sözü dilimizə məxsus neologizmlər də yaratmışdır.”Döşlük”, “dağın döşü”, “döşdü adam” və s.

“Düşmən” sözü dilimizə fars dilindən keşmə olduğu üçün “daş” sözü ilə əlaqəsi yoxdur.Bəzi mənbələrdə “dış adam” yəni “yadelli” kimi də mənalandırılır.

P.S.Məqaləni yazıb qurtaranda hörmətli alimimiz Firudin Ağsıoğlunun (Cəlilov) fikrini xatırladım.Bu yolun çətinliyi göz qarşısındadır.Ancaq çətinlikdən keçən yol daha uğurlu olur.

Bilmirəm düşüncələrim qeyri adidir, yoxsa ağlabatandır.Mənbə elə özüməm.(H.Ə.)Özüm özümə inanıram.(“özünəinam”həyati şərtlərdəndir)Ancaq insan özünə kənardan da baxmağı da bacarmalıdır..Ona görə bu fikirlərimi publikaya çıxardım.Mən özünütənqidi kənar tənqiddən önəmli sayıram.Ancaq publika təmiz bir aynadır.

Dilçilik nəzəriyyəsinin əsas amili yeni nəzəriyyənin tapılması yollarıdır.Nəzəriyyə özü yeni baxış deməkdir.O, mühərrik və davamlı olmalıdır.

Yazımın qayəsi akademik olsa da, publikaya uyğun olaraq terminologiyadan çox istifadə etmədim.

Bu məqaləni yazmaqda məqsədim bir çox alimlərin qədim sözlərimizi oxuculara “daşlaşmış”, onların təbirincə desəm “birikmə” kimi təqdim etdikləri sözlərə aydınlıq gətirməkdir.Yeri gəlmişkən “birikmə” sözü “bərkimə” sözündəndir.”Daş” sözünün müəyyən sözlərdə: vətəndaş, yoldaş, qardaş, sirdaş və s. sözlərdə şəkilçi kimi verirlər.Türk dillərində “daş” sözü müstəqil söz kimi “bərk” sözünün sinonimidir.”Bir” sözü də buradandır.Yəni bir yumruq olmaq, birlik, birgə və s.

Qədim keçmişimizdən bizə gəlib çatan müqəddəs Pirlərimiz də "bir"-sözünün "daş" mənasında günümüzə gəlib çıxmasıdır.(müəllif)Həqiqətən də bütün Pirlərdə müqəddəs sayılan daşlar vardır.(Kəbədə də həmçinin.Qara daş-əcərül əsvəd)İnsanlar onu öpür, əl və üzlərini ona sürtməklə şəfa axtarırlar.
Məqalə uzun olsa da oxumaq maraqlı olacaqdır.Mən özüm də bu məqaləni dəfələrlə oxuyacağam.Mənim üçün daha maraqlıdır.Sizlərə də məsləhət bilirəm.
Təşəkkür edirəm.

**Müəllif: Həsən ƏLİYEV**

**SÖZ YARADICILIĞI**

**ALTERNATİV DÜŞÜNCƏ**

**WWW.KİTABEVİM.AZ**

**HƏSƏN ƏLİYEVİN YAZILARI**

**YUNUS OĞUZUN BLOQU – CIĞIR**

525.az hafta.az kultur.az butov.az
tezadlar.az kitabevim.az kitabxana.net
adalet.az goyce.az radio-kardeche
**olaylar.az** yazar.in mustaqil.az

**Mustafa Müseyiboğlu adına kitabxana**

**Rəfail Tağızadə – "Qarabağ rüzgarları" kitabı**

**"YAZARLAR" FOTO QALEREYA, JURNALI PDF**



## TƏQDİMATLAR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə Behbudova Gülşən Behbud qızı - **Gülşən BEHBUD** "Tərəqqi" medalı ilə təltif edilib. Təbrik edirik!

**DOĞUM GÜNÜ TƏBRİKİ**



# 8 MAY – İLQAR MİRZƏYEV

***8 may Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin polkovniki, şəhid İlqar Mirzəyevin anadan olduğu günüdür.***
İlqar Anzor oğlu Mirzəyev (8 may 1973; Qardabani rayonu, Gürcüstan — 14 iyul 2020; Tovuz rayonu, Azərbaycan) — Azərbaycanın Milli Qəhrəmanı Azərbaycan Silahlı Qüvvələrinin polkovniki; Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Artilleriya rəisi (2019—2020-ci illərdə). ***Mövludun mübarək olsun, Qardaş!!! Salam olsun!!!***

**Hörmət və ehtiramla: Zaur USTAC.**




**"ƏDƏBİ OVQAT" JURNALI PDF**

**"ULDUZ" JURNALI PDF**

**"XƏZAN"JURNALI PDF**

**WWW.KİTABEVİM.AZ**

**>>>SATIŞDA OLAN KİTABLAR**

**"YAZARLAR" JURNALI PDF**

**<<<< WWW.YAZARLAR.AZ və WWW.USTAC.AZ >>>>**

*Əlaqə:* Tel: (**+994**) 70-390-39-93 E-mail: zauryazar@mail.ru

## "TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!"

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: WWW.YAZARLAR.AZ
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

"Yazarlar"ın redaksiyasında yığılıb səhifələnir,
"El kitab çapı" mərkəzində çap olunur.
Çapa imzalanıb: 01.05.2024
Sifariş: №:45
Format: A 5
Tiraj:100.
Elektron variant var.
Qiyməti: Müqavilə ilə.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.